# BP Azərbaycanda
# Davamlı inkişaf haqqında hesabat 2014

bp.com/xezer/hesabat








South Caucasus Pipeline

## Daha güclü, daha etibarlı bir BP qururuq

# Hesabatımız barəsində

## Bu hesabat 31 dekabr 2014-cü ildə bitən təqvim ilini əhatə edir. Bəzi hallarda 2015-ci ildə baş vermiş mühüm hadisələr də hesabata daxil edilib.

Başqa cür göstərilməyibsə, mətndə "BP p.l.c." və onun törəmə şirkətləri və filiallarının əməliyyatları və fəaliyyətləri arasında fərq qoyulmur. Xüsusi olaraq göstərilən hallar istisna olmaqla, bu hesabatda "bizə", "biz" və "bizim" sözlərinə edilən istinadlar Azərbaycanda BP şirkətinə edilən istinadlardır. Əgər hesabatda "BP Azərbaycanda" deyilərək istinad edilirsə, bu o deməkdir ki, yalnız Azərbaycanda olan əməliyyatlarımıza istinad edilir. Əgər biz "BP AGT"yə istinad edirikse, onda bizim Azərbaycan, Gürcüstan və Türkiyədəki fəaliyyətlərimizə istinad edirik. "BP" və "BP qrupu"na edilən konkret istinadlar "BP p.l.c.", onun törəmə şirkətləri və filialları deməkdir.

Dollarla ifadə edilən bütün məbləğlər ABŞ dollarını nəzərdə tutur və digər pul vahidlərindən çevrilibsə, bu məbləğin ayrılması anına olan məzənnəni əks etdirir. Qaz həcmləri standart kubmetr və ya standart kubfutla verilir.

Bu hesabat hər il Azəri-Çıraq-Dərinsulu Günəşli yatağı üçün birgə əməliyyat şirkətinin əməliyyatçısı və idarəedicisi, həmçinin Ze Bakı-Tbilisi-Ceyhan Payplayn Kompani ("The Baku-Tbilisi-Ceyhan Pipeline Company") şirkətinin idarəedicisi qismində çıxış edən BP Eksploreyşn (Kaspian Si) Limited ("BP Exploration (Caspian Sea) Limited") ilə Şahdəniz yatağının əməliyyatçısı və Sauf Kokazus Payplayn Kompani ("South Caucasus Pipeline Company") şirkətinin texniki operatoru qismində çıxış edən BP Eksploreyşn (Şahdəniz) Limited ("BP Exploration (Shah Deniz) Limited") tərəfindən nəşr edilir. Bu şirkətlərin hər biri bu hesabatın məqsədlərinə uyğun olaraq öz layihələri üzrə müvafiq məlumatları vermişdir.

### Xəbərdaredici bildiriş

*BP-nin Azərbaycanda davamlı inkişaf haqqında 2014-cü* il üçün hesabatında öncədən söylənmiş, məsələn, çıxarıla bilən həcmlər və ehtiyatlara, əsaslı, əməliyyat xərcləri və digər xərclərə, həmçinin gələcək layihələrə aid müəyyən bəyanatlar ola bilər. Bir sıra amillərdən, o cümlədən tələb və təklifin dəyişməsindən, qiymət və işlərin gedişi məsələlərindən, həmçinin siyasi, hüquqi, maliyyə, kommersiya və sosial şəraitdən asılı olaraq faktiki nəticələr belə bəyanatlardakı göstəricilərdən fərqlənə bilər.




**Üz qabığındakı şəkil**
BP-nin Azərbaycanda tikinti üzrə aparıcı mütəxəssisi Tofiq Qorçuyev Bakıdan təxminən 15km cənuba doğru, Şahdəniz Mərhələ 2 layihəsi üçün iki platformanın üst modulları inşa olunan Amek-Tekfen-Azfen tikinti sahəsində işlərə nəzarət edir və podratçı işçilərə göstərişlər verir.

# Hesabatın içindəkilər

*"BP Azərbaycanda. Davamlı inkişaf haqqında hesabat 2014"* bizim 2014-cü təqvim ili ərzində nail olduğumuz istehsalat göstəricilərini, ətraf mühitin mühafizəsi ilə bağlı gördüyümüz işləri və Azərbaycandakı fəaliyyətlərimizin digər sahələrini əhatə edir. Bu hesabat bizim davamlı inkişaf haqqında 12-ci hesabatımızdır və əvvəlki hesabatlar barədə aldığımız rəyləri özündə əks etdirir.


**Ümumi baxış**

**2 Giriş sözü**
Regional prezident 2014-cü ildə həyata keçirdiyimiz müxtəlif fəaliyyətlərin əsas məqamları barədə düşüncələrini və gələcək planlarımızı bölüşür.

**4 BP Azərbaycanda – ilk baxışda**
Təşkilati strukturumuz ilk baxışda, 2014-cü ildə əsas nailiyyət və çətinliklərmizin xülasəsi.

**Əsas istiqamətlər**

**6 Əməliyyatlarımız**
Biz Xəzərdə əsas karbohidrogen yataqlarını işlədir, onları region və dünya bazarları ilə birləşdirən boru kəmərlərini idarə edirik.

**13 Əməkdaşlarımız**
Məqsədimiz işçi heyətimizin istedadlarını inkişaf etdirmək, güclü cəhətlərimiz və bacarıqlarımızı daha da artırmaq üçün ən yaxşıları işə cəlb etməkdir.

**19 Əməyin təhlükəsizliyi**
Diqqəti təhlükəsiz, etibarlı və qaydalara uyğun əməliyyatlara yönəldir, gördüyümüz hər işdə əməyin təhlükəsizliyi və əməliyyat risklərinin idarə edilməsini əsas götürürük.

**23 Ətraf mühit**
Biz başa düşürük ki, ətraf mühitə təsirlərin idarə olunması neft və qazın məsuliyyətli şəkildə hasil olunması prosesinin mühüm bir hissəsidir.

**27 Cəmiyyət**
Biz təhsil, icma və sahibkarlığın inkişafı sahəsində layihələrimiz vasitəsilə və gəlirlərin şəffaflığı sahəsində əməkdaşlıq etməklə cəmiyyətə və yerli iqtisadiyyata müsbət təsir göstərməyə can atırıq.

**Bizim hesabat prosesi və əsas icra göstəricilərimiz**

**34 Hesabat prosesi, rəy və təkliflər**
Məqsədimiz fəaliyyətlərimiz barədə tam və şəffaf hesabat vermək, əvvəlki hesabatlar barədə maraqlı tərəflərin rəy və təkliflərinə cavab verməkdir.

**35 Beşillik icra göstəriciləri**
Hasilat, əməyin təhlükəsizliyi, ətraf mühit və sosial xərcləri əhatə edən əsas icra göstəricilərimiz.


BP-nin Azərbaycanda həyata keçirdiyi davamlı inkişaf fəaliyyətlərinə dair məlumat, açıqlama və bəyanatların faktlara və izahlara əsaslandığı barədə BP rəhbərliyində əminlik yaratmaq məqsədi ilə biz *BP-nin Azərbaycanda 2014-cü* il üçün hazırladığı davamlı inkişaf haqqında hesabatı yoxlamışıq. Gördüyümüz işlərin əhatə dairəsi və gəldiyimiz nəticələrlə səhifə 36-da tanış olmaq olar.

"Ernst & Young" şirkəti
Yoxlama prosesinə giriş sözü











# Regional prezidentimizin giriş sözü



> Regiondakı iyirmi illik uğurlu əməliyyatlarımız irimiqyaslı mürəkkəb layihələri yerinə yetirmək üçün bizə əminlik, bilik və təcrübə verir.
>
> **Qordon Birrell**

Hər il nəşr olunan "*BP Azərbaycanda. Davamlı inkişaf haqqında hesabat*"ı təqdim etməkdən böyük məmnunluq duyuram. On ikinci ildir ki, ölkədə gördüyümüz işlərə dair ictimaiyyətə məlumat vermək barədə üzərimizə götürdüyümüz öhdəliyin bir hissəsi kimi bu hesabatı hazırlayırıq. Hesabat şirkətdənkənar yoxlamadan keçərək təsdiqlənir və 2014-cü il üzrə fəaliyyətimizə tarazlaşdırılmış bir baxış təqdim edir.

2014-cü ilə əlamətdar bir hadisə ilə – yeni Qərbi Çıraq platformasından ilk neftin hasil olması ilə başladıq. Bu, Xəzərin Azərbaycan sektorundakı ən böyük neft yatağı olan Azəri-Çıraq-Dərinsulu Günəşlidə (AÇG) quraşdırılmış altıncı hasilat platformasıdır. Tərəfdaşlarımız və hökumətlə razılaşdırdığımız kimi, hasilatın optimallaşdırılması planlarımızın həyata keçirilməsinə davam etdik. 2014-cü il boyu AÇG gündəlik orta göstəricisi təxminən 640 min barel olmaqla səmərəli şəkildə hasilatı davam etdirdi.

Azərbaycan hökuməti, tərəfdaşlarımız və digər maraqlı tərəflərlə birlikdə ötən ilin sentyabr ayında "Əsrin müqaviləsi" adlanan AÇG üzrə hasilatın pay bölgüsü sazişinin imzalanmasının 20-illik yubileyini qeyd etdik. Eyni gündə Cənub Qaz Dəhlizi layihəsinin təməlqoyma mərasiminə ev sahibliyi etdik. Bu monumental layihə nəhəng Şahdəniz yatağının qaz ehtiyatlarını ilk dəfə olaraq Avropa bazarları ilə əlaqələndirilməyi nəzərdə tutur.

Regiondakı iyirmi illik uğurlu əməliyyatlarımız irimiqyaslı mürəkkəb layihələri yerinə yetirmək üçün bizə əminlik, bilik və təcrübə verir. 2014-cü ildə Şahdəniz Mərhələ 2 və Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihələri üzrə yaxşı irəliləyişə nail olduq. Biz 10 milyard dollar dəyərində mühüm müqavilələri imzaladıq və platformaların hazırlanması, inşaat işləri üzrə qrafiki qabaqlayırıq. 2014-cü ilin sonuna bütün əsas müqavilələrimiz üzrə işləyən insanların sayı 9 500-ü keçdi. Qeydiyyata alınan heç bir insident olmadan 5,5 milyon adam-saatdan çox iş görməyə nail olduq.

Əməyin təhlükəsizliyinə daimi diqqət bizim üçün ən yüksək prioritet olaraq qalır. Qeydiyyata alınan xəsarətlərin tezliyi 2013-cü illə müqayisədə 67%, yol-nəqliyyat qəzalarının ümumi səviyyəsi isə 40%-dək azaldı. Eyni zamanda il ərzində bir neçə yüksək potensiallı insidentin şahidi olduq. Bu hadisələrdən nəticə çıxarmaq öhdəliyimizdir və əməyin təhlükəsizliyi üzrə ciddi göstəricilərimizi qoruyub saxlamaq üçün işimizdə diqqətli olmağa davam edirik.

Azərbaycan neft-qaz yataqlarının işlənməsi və nəqli üzrə mühüm layihələrinin operatorluğunu bizə etibar edib. İnanırıq ki, işlədiyimiz yerlərdə cəmiyyət və icmalar bizim orada olmağımızdan faydalanmalıdırlar. Bu ölkəyə sosial-iqtisadi töhfəmizə iş yerlərinin açılması, vergi gəlirləri, yerli müəssisələr üçün imkanların yaradılması və yerli inkişaf təşəbbüslərinin dəstəklənməsi daxildir.

Azərbaycandakı tərəfdaşlarımızla birlikdə sahibkarlığın inkişafı və təlim proqramlarımız vasitəsilə, eləcə də layihələrimizdə işləyən yerli işçi qüvvəsini artırmaqla yerli bazarın inkişafını dəstəkləmək öhdəliyimizə sadiqik. 2014-cü ildə ölkə daxilində yerli təchizatçılar vasitəsilə əməliyyatlar üçün birgə xərclərimiz 12% artaraq təxminən 1,8 milyard dollara çatdı.

Keçən il Xəzər Texniki Təlim Mərkəzinin on yaşını qeyd etdik. Dünya səviyyəli bu obyekt müxtəlif texniki ixtisaslar üzrə 1 000-dən artıq yerli işçimizə təlim verməklə işçi heyətimizin milliləşdirilməsi planlarımıza mühüm töhfə verib.

BP-nin idarə etdiyi layihələrə cəlb olunmuş yerli işçilərin inkişafı üçün uzunmüddətli öhdəliyimizə dəstək olaraq Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə əməkdaşlığımızı davam etdirdik. 2014-cü ilin sonuna BP-nin Azərbaycanda işləyən orta səviyyəli menecerlərinin 86%-dən çoxu ölkə vətəndaşları idi. Yüksək vəzifəli rəhbərlərin sayı 230-a çatıb ki, bu da əvvəlki illə müqayisədə 17% artımdır. Bunlarla yanaşı, məzunların işə götürülməsi və tələbələrin yay təcrübəsi üzrə illik proqramımız təxminən 4 300 ərizə qəbul etməklə Azərbaycan gəncləri arasında populyarlığını saxlayıb.

Biz həmçinin Bakı 2015 Avropa Oyunlarına dəstək olmaq üçün Avropa Oyunlarının Əməliyyat Komitəsi ilə tərəfdaşlığa qoşulduq və yenilikçi Oyunlar Akademiyası təşəbbüsü vasitəsilə yerli gənclərin peşəkar bacarıqlarının yaradılmasına sərmayə qoyduq.

Bu nəşr 2014-cü ildəki bir çox nailiyyətlərimizlə birlikdə üzləşdiyimiz bəzi çətinliklərdən də söz açır. Bütün bu məsələləri nəzərdən keçirərkən, məqsədimiz işgüzar fəaliyyətimizi çətin dövrlərdə davamlı olan və öz tərəfdaşlarımıza, o cümlədən geniş ictimaiyyətə mənfəət gətirməyə davam edən bir səviyyədə saxlamaqdır.

Bu hesabatı oxuduğunuza görə təşəkkür edirəm. Həmişə olduğu kimi, bu hesabat da fəaliyyətlərimiz barədə maraqlı tərəflərin rəyləri əsasında formalaşır. Beləliklə, sizin şərhlərinizi və təkliflərinizi gözləyirik.



**Qordon Birrell**
BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti
9 iyul 2015

# Nailiyyətlər və çətinliklər

Bu bölümdə BP-nin 2014-cü ildə Azərbaycanda əldə etdiyi mühüm nailiyyətlərin və qarşılaşdığı çətinliklərin xülasəsini veririk.

## 2014

### 28 yanvar
Qərbi Çıraq platformasında qabaqlayıcı quyulardan biri hasilata başladı və bununla da 2010-cu ildə sanksiya verilmiş Çıraq neft layihəsi tamamlandı.

### 21 aprel
Bakı-Tbilisi-Ceyhan 2 500-cü tankerin Ceyhan terminalında neftlə yüklənib yola salınmasını qeyd etdi.

### 12 iyun
Bakı 2015 Avropa Oyunlarını dəstəkləmək və yerli gənclərin peşəkar bacarıqlarının yaradılmasına sərməyə qoymaq üçün Avropa Oyunlarının Əməliyyat Komitəsi ilə tərəfdaşlıq qurduq.

### 20 sentyabr
Tranzit ərazisinə malik ölkələrin hökumətləri, tərəfdaşlar və digər maraqlı tərəflərlə birlikdə "Əsrin müqaviləsi"nin 20-illik yubileyini qeyd etdik və Cənub Qaz Dəhlizinin təməlqoyma mərasimini keçirdik.

### 22 dekabr
BP və SOCAR Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron yarımadasının ətrafındakı dayazsulu sahədə yerləşən potensial perspektiv strukturlarda birgə geoloji kəşfiyyat işlərinin aparılması və işlənməsi haqqında hasilatın pay bölgüsü sazişi imzaladı.

Biz Bakıdakı ilk ofisimizi 1992-ci ildə açdıq, iki il sonra isə BP Azərbaycan hökuməti ilə tarixi "Əsrin müqaviləsi"ni imzaladı.

Xəzərdəki tarixçəmiz barədə oxuyun: *bp.com/caspian/history*



BP əməkdaşı yeni işə salınmış Qərbi Çıraq platformasında.

## Nailiyyətlər

**Əməliyyatlar və biznesin inkişafı**
Yanvar ayında Qərbi Çıraq platformasından ilk neft hasil olundu.Səhifə 7-yə baxın.

Şahdəniz Mərhələ 2 layihəsi 2014-cü ildə bir sıra əlamətdar göstərici üzrə qrafiki qabaqlayaraq, yaxşı irəliləyişə nail oldu. Səhifə 10-a baxın.

Şəfəq-Asiman strukturundan əldə olunmuş üçölçülü seysmik məlumatların interpretasiyasını başa çatdırdıq və Abşeron yarımadasının ətrafındakı dayazsulu sahədə birgə geoloji kəşfiyyat işləri aparmaq üçün yeni saziş imzaladıq. Səhifə 12-yə baxın.

**Əməkdaşlarımız**
Azərbaycanda BP-nin yüksək vəzifələrdə işləyən yerli əməkdaşlarının sayı il ərzində 17% artaraq 230-a çatdı. Səhifə 14-ə baxın.

**Əməyin təhlükəsizliyi**
Qeydiyyata alınan xəsarətlərin tezliyi 2013-cü illə müqayisədə 67%, yol-nəqliyyat qəzalarının ümumi səviyyəsi isə 40% aşağı düşdü.Səhifə 20-yə baxın.

**Ətraf mühit**
Sahil xətti və qurudakı boru kəməri marşrutları üçün ətraf mühit və sosial-iqtisadi cəhətdən həssaslıq xəritələrinin yenilənməsini uğurla başa çatdırdıq. Səhifə 26-ya baxın.

İlk dəfə olaraq lay suyunun dəniz platformasında separasiyasına başladıq və yenidən laya vurulan lay suyunun ümumi həcmi 2013-cü ilə nisbətən 16% artdı. Səhifə 25-ə baxın.

**Sahibkarlığın inkişafı**
Əməliyyat və layihələrimiz üzrə birgə xərclərimizin cəmi ümumilikdə 2,71 milyard dollardan çox oldu ki, bu da 2013-cü ildəkinə nəzərən 37% artımdır. Səhifə 29-a baxın.

## Çətinliklər

**Əməyin təhlükəsizliyi**
2014-cü ildə iki ağır yol hadisəsi və yeddi yüksək potensiallı insident qeydə alındı. Səhifə 21-ə baxın.

**Ətraf mühit**
Hasil edilmiş lay suyunun kəmiyyəti artmaqda davam etdi, belə ki, 2013-cü ildəkindən 20% artıq lay suyu əmələ gəldi. Səhifə 25-ə baxın.

# BP Azərbaycanda – ilk baxışda

Strukturumuz, təşkilatımız, obyektlərimiz və tariximiz.

Azərbaycanın karbohidrogen ehtiyatlarının Gürcüstan və Türkiyə vasitəsilə dünya bazarlarına nəql edilməsi ilə Xəzər regionu dünyada neft və qaz hasil edən mühüm ərazilərdən birinə çevirildi.

**BP Azərbaycan, Gürcüstan və Türkiyədə**
Azərbaycanda BP Azərbaycan hökuməti ilə bağlanmış bir neçə hasilatın pay bölgüsü sazişi və tranzit əraziyə malik ölkə hökuməti sazişi (TƏMÖHS) əsasında fəaliyyət göstərir. Gürcüstan və Türkiyədə o, ixrac boru kəmərlərini və terminalları əhatə edən TƏMÖHS-lər əsasında fəaliyyət göstərir.

**Cənubi Qafqaz Boru Kəməri (CQBK)**
Səngəçal terminalından Gürcüstan-Türkiyə sərhədinə qədər uzunluğu 691km olan qaz boru kəməri

Ötürmə qabiliyyəti:
gündə **19,8 milyon** kubmetr

2014-cü ildə orta ötürmə gücü gündə təxminən **18,3 milyon** kubmetr olub




**Ceyhan terminalı**
2006-2014-cü illər ərzində ümumilikdə **2 751 tanker** yüklənib

2014-cü ildə **362 tanker** yüklənib

**Hüquqi struktur**
Azərbaycanda BP-yə aid bir sıra hüquqi şəxslərin nümayəndəlikləri fəaliyyət göstərir və bu da BP-nin 1992-ci ildə Bakıda ilk ofisini açmasından bəri ölkədə və regionda keçdiyi təkamülü əks etdirir. Əsas hüquqi şəxs BP Eksploreyşn (Kaspian Si) Limited ("BP Exploration (Caspian Sea) Limited") şirkətidir.

**Dayazsulu Abşeron**
Perspektiv struktur
Potensial perspektiv strukturlarda birgə geoloji kəşfiyyatın aparılması və işlənməsi haqqında **saziş** 2014-cü ildə imzalanıb

**Biznes strukturu**
2014-cü ilin sonuna Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional rəhbər qrupu regional prezidentin rəhbərliyi altında 17 vitse-prezident, tədarük və təchizat üzrə məsul şəxs, baş hüquq müşaviri köməkçisi, planlaşdırma və kommersiya əməliyyatları şöbəsinin müdiri, nəzarət və maliyyə əməliyyatları şöbəsinin müdirindən ibarət idi.

**Şəfəq-Asiman**
Geoloji kəşfiyyat sahəsi
İlk **üçölçülü seysmik** məlumatların əldə olunması proqramı 2012-ci ildə başa çatıb
Seysmik məlumatların işlənməsi 2014-cü ildə başa çatdırılıb

**Qeydiyyatdan keçirilmiş ünvan**
BP Eksploreyşn (Kaspian Si) Limited şirkətinin Azərbaycandakı ofisinin qeydiyyatdan keçirilmiş ünvanı: Neftçilər prospekti, 153, Nəsimi rayonu, Bakı şəhəri, AZ1010, Azərbaycan.
Telefon: +994 (0)12 497 599 3000.
Faks: +994 (0)12 599 3665.

**Əməkdaşlar**
2014-cü ilin sonunda Azərbaycanda BP tərəfindən daimi işə götürülmüş şəxslərin sayı 3 393 idi ki, bunların 2 919-u Azərbaycan vətəndaşları idi.

## 51 milyard

dollar 1995-ci ildə əməliyyatların başlamasından bəri AÇG, BTC, Şahdəniz və CQBK layihələri üçün çəkilmiş əsaslı xərclərdir.

## 65,7 milyon

dollar Azərbaycanda əməliyyatlarımıza başladığımızdan bəri icma inkişafı və təhsil təşəbbüsləri də daxil olmaqla tərəfdaşlarımızla birlikdə sosial proqramların həyata keçirilməsinə çəkdiyimiz xərcdir.

**Qərb İxrac Boru Kəməri (QİBK)**
Səngəçal terminalını Gürcüstanın Qara dəniz sahilindəki Supsa limanı ilə birləşdirən 829km uzunluğunda boru kəməri

Ötürmə qabiliyyəti: gündə **106 min** barel

2014-cü ildə **31,4 milyon** barel neft nəql edilib

**Bakı-Tbilisi-Ceyhan boru kəməri (BTC)**
Səngəçal terminalını Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan dəniz terminalı ilə birləşdirən 1 768km uzunluğunda boru kəməri

Ötürmə qabiliyyəti: gündə **1,2 milyon** barel

2014-cü ildə **262 milyon** barel neft nəql edilib

**Səngəçal terminalı**
Bakı şəhərinin cənubunda yerləşən kompleks neft və qaz emalı terminalı

Texnoloji emal gücü: gün ərzində **1,2 milyon** barel neft və **41,5 milyon** kubmetr qaz

İşlək tutumu: təxminən **3,2 milyon** barel

**Şahdəniz**
Qaz hasilatı və işlənməsi

**1** hasilat platforması

2014-cü ildə təxminən **9,9 milyard** kubmetr qaz hasil edilib

**Azərbaycanda yerli xərclərimiz**
2014-cü ildə yerli təchizatçılar vasitəsilə birgə ölkədaxili sırf əməliyyat xərclərimiz **1,8 milyard dollar** olub

**Azəri-Çıraq-Dərinsulu Günəşli (AÇG)**
Neft hasilatı və işlənməsi

**6** hasilat platforması

2014-cü ildə təxminən **233 milyon** barel neft hasil edilib




Azərbaycanda BTC və CQBK boru kəmərləri 13 rayondan keçir:
Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz, Ağstafa.

## 2,6 milyard

barel neft 1997-ci ildə ilk neft hasilatından başlayaraq 2014-cü ilin sonunadək AÇG-dən hasil olunub.

## 57,8 milyard

kubmetr qaz 2006-cı ildə ilk qaz hasilatından başlayaraq 2014-cü ilin sonunadək Şahdəniz yatağından hasil olunub.

## 10

qazma qurğusu, o cümlədən üç səyyar qazma qurğusu hazırda dənizdəki əməliyyatlarımıza cəlb edilib.

# Əməliyyatlarımız

Xəzər regionunda mövcudluğumuzu davamlı olaraq saxlamaqla dünya səviyyəli əməliyyat və layihələri həyata keçirmək barədə öhdəliyimizə sadiqik.

## Nə edəcəyimizi demişdik

Yeni Cənub Qaz Dəhlizi açmaqla Avropa bazarlarını qazla təchiz etmək üçün Şahdəniz Mərhələ 2 və Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi layihələrini irəli aparacağıq.

Karbohidrogen obyektlərinin səmərəliliyini maksimuma çatdırmaq üçün regiona yeni texnologiyalar gətirəcəyik.

İlk geoloji kəşfiyyat quyusunun planlaşdırılmasından əvvəl Şəfəq Asiman üçün seysmik məlumatların interpretasiyasını başa çatdıracağıq.

## Bu gün işlər nə yerdədir

Əldə olunan nailiyyətlərə tikinti-quraşdırma sahələrinin yenidən qurulması, boru seqmentlərinin gətirilməsi, sualtı avandanlıqların, platforma üst modulları və dayaq bloklarının tikintisinin başlanması aiddir.

Yanvar ayında Qərbi Çıraq platformadasından ilk neft hasil edildi.

Bu strukturun seysmik tədqiqatından əldə edilmiş məlumatların emalı və interpretasiyası başa çatdırıldı.

## Daha nə etməyi planlaşdırırıq

Şahdəniz Mərhələ 2 və Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi üzrə fəaliyyətləri davam etdirərək Azərbaycan və Gürcüstanda kəmər xəttinin çəkilməsi işlərinə başlayacağıq.

İki dəniz platformasında dövri texniki xidmət işlərini yerinə yetirərək, uzun müddətdə obyektlərin təhlükəsizliyi və etibarlılığını yaxşılaşdıracağıq.

Dayazsulu Abşeron geoloji kəşfiyyat layihəsi üçün ətraf mühit və sosial sahəyə təsirin qiymətləndirilməsini aparacağıq.



# Təhlükəsiz və etibarlı əməliyyatlar

BP dənizdə Azərbaycanın əsas karbohidrogen yataqlarının operatorudur. Quruda dünyanın ən böyük kompleks neft və qaz emalı terminallarından birini, həmçinin onu region və dünya bazarları ilə birləşdirən boru kəmərlərini idarə edirik.

İşçilər təhlükəsiz şəkildə heyətdaşıma kapsulunda Qərbi Çıraq platformasına qaldırılırlar.




**2,6 milyard**

barel Azəri-Çıraq-Dərinsulu Günəşlidən 1997-2014-cü illərdə hasil olunmuş neftin ümumi həcmidir.



2014-cü il ərzində Azəri-Çıraq-Dərinsulu Günəşli (AÇG) neft və Şahdəniz qaz yataqlarından hasilat davam etdirildi.

## Azəri-Çıraq-Dərinsulu Günəşli

BP şirkəti Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin adından AÇG yatağının əməliyyatçısıdır. Bu, Xəzər hövzəsinin Azərbaycan sektorunda ən iri neft yatağıdır və Bakıdan təxminən 100 km şərqdə yerləşir. AÇG yarğanlar, palçıq vulkanları, eləcə də dik yamaclar daxil olmaqla sərt dəniz dibi relyefinə malik geoloji baxımdan mürəkkəb yataqdır.

AÇG-də hasilat 1997-ci ilin noyabr ayında Çıraq hissəsindən başlayıb. İndi buraya yatağın Mərkəzi, Qərbi və Şərqi Azəri, Dərinsulu Günəşli və Qərbi Çıraq hissələri də daxildir. 2014-cü ilin sonunda AÇG-də ümumilikdə 84 neft hasilatı quyusu və 39 suvurma və qazvurma quyusu istismar olunurdu.

2014-cü ildə AÇG Qərbi Çıraq platformasından hasilata başlamaqla mühüm bir hadisəni qeyd etdi. Öncəqazma quyularının birindən ilk neft yanvarın 28-də hasil olundu. İlin sonunadək Qərbi Çıraqda hasilat artaraq altı quyudan gündəlik 90 min barelə çatdı.

2014-cü il ərzində AÇG-də hasilatın səviyyəsi, demək olar ki, hamar olamağa davam etdi. İl ərzində AÇG kompleksindən orta hesabla gündə 638 min barel (ümumilikdə təxminən 31,5 milyon ton və ya 233 milyon barel) neft hasil etdik.

**BP-nin törəmə şirkətlərinin dünyanın müxtəlif yerlərində maye karbohidrogen hasilatındakı xalis payı[a]**
(%)




[a] Gündə cəmi 844 min barel neft və 91 min barel kondensat.
[b] "Digər"ə Əlcəzair, Anqola, Avstraliya, Kanada, Misir, Hindistan, İndoneziya, İraq, Trinidad və Tobaqo daxildir.

**Azəri-Çıraq-Dərinsulu Günəşli neft hasilatı**

| Platforma | Hasilatın başlanma tarixi | Ölçü vahidi | Hasilat başlanandan 2014-cü ilin sonunadək | 2013 | **2014** |
|---|---|---|---|---|---|
| Çıraq | Noyabr 1997 | milyon barel | 648,8 | 25,4 | **22,6** |
| | | milyon ton | 87,7 | 3,4 | **3,1** |
| Mərkəzi Azəri | Fevral 2005 | milyon barel | 673,0 | 55,4 | **57,1** |
| | | milyon ton | 90,9 | 7,5 | **7,7** |
| Qərbi Azəri | Dekabr 2005 | milyon barel | 627,8 | 68,7 | **54,5** |
| | | milyon ton | 85,0 | 9,3 | **7,4** |
| Şərqi Azəri | Noyabr 2006 | milyon barel | 352,5 | 38,9 | **27,1** |
| | | milyon ton | 47,6 | 5,2 | **3,7** |
| Dərinsulu Günəşli | Aprel 2008 | milyon barel | 299,4 | 50,8 | **53,3** |
| | | milyon ton | 40,7 | 6.8 | **7,2** |
| Qərbi Çıraq | Yanvar 2014 | milyon barel | 18,3 | | **18,3** |
| | | milyon ton | 2,5 | | **2,5** |
| Cəmi | | milyon barel | 2 619,8 | 239,2 | **232,8** |
| | | milyon ton | 354,3 | 32,2 | **31,5** |

Qərbi Çıraq platformasından 2014-cü ilin yanvarında ilk neft hasil edildi və bu, 2010-cu ildə sanksiyalaşdırılmış Çıraq neft layihəsini başa çatdırdı.



Şahdəniz platformasının vertolyotdan görünüşü.

## Azəri-Çıraq-Dərinsulu Günəşlidən (AÇG) neft hasilatı, 2003-2014
(milyon barel)




Həmçinin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə (SOCAR) gündə təxminən 7,6 milyon kubmetr AÇG səmt qazı çatdırdıq ki, bu da ümumilikdə 2,76 milyard kubmetrə bərabərdir.

AÇG-də hasilatın sabitləşdirilməsi istiqamətində Azərbaycan hökuməti, SOCAR və digər tərəfdaşlarımızla sıx əməkdaşlıq edərək əsas diqqəti hasilat göstəriciləri üzrə hədəflərə və planlara yönəltməyə davam etdik. Yeni texnologiyalara və qurğulara gələcəkdə də davamlı surətdə böyük investisiyaların qoyulması ilə AÇG uzun illər boyunca dünya səviyyəli yataq kimi öz hasilatını davam etdirə bilər.

2014-cü ildə AÇG fəaliyyətləri üzrə əməliyyat xərclərinə təxminən 1 milyard dollar, əsaslı xərclərə isə 2,3 milyard dollar vəsait sərf etdik.

## BP-nin törəmə şirkətlərinin dünyanın müxtəlif yerlərində təbii qaz hasilatındakı xalis payı[a]
(%)




[a] Birgə müəssisələr istisna olmaqla gündə cəmi 5 585 milyon kubfut.
[b] "Digər"ə Əlcəzair, Avstraliya, Kanada, Misir, Hindistan, İndoneziya, Trinidad və Tobaqo daxildir.

## BP-nin Xəzərdə əməliyyatçısı olduğu və podratçı kimi işlətdiyi əsas obyektlər



**57,8 milyard**

kubmetr ümumi qaz hasilatı 2014-cü ilin sonuna Şahdənizin əldə etdiyi nailiyyətdir.



## Şahdəniz

Şahdəniz (ŞD) qaz yatağı 1999-cu ildə kəşf edilib. Yataq sahildən dənizə doğru 70 km məsafədə, suyun dərinliyinin 50-600 metr arasında dəyişdiyi bir ərazidə yerləşir. Onun məhsuldar layının qalınlığı 1 000 metrdən artıq, uzunluğu isə 22 kilometrdir. Geoloji baxımdan mürəkkəb olan ŞD çox yüksək təzyiqə və çoxsaylı məhsuldar lay horizontlarına malikdir.

2014-cü ildə ŞD yatağından qazın Azərbaycan, Gürcüstan və Türkiyə bazarlarına etibarlı şəkildə çatdırılması davam edib.

İl ərzində yataqdan təxminən 9,9 milyard kubmetr qaz və 2,3 milyon ton (18,7 milyon barel) kondensat hasil edilib. Mövcud ŞD qurğuları daha da optimallaşdırılıb ki, bunun nəticəsində gündəlik hasilat gücü 27,3 milyon kubmetrdən 29,5 milyon kubmetrədək artırılıb.

2014-cü ildə ŞD mövcud quyuların etibarlılığı və bütövlüyünü gücləndirən bir sıra mühüm quyu işlərini tamamladı və yeni hasilat quyusunun qazılmasına başladı. Beş ŞD quyusu barel ekvivalenti ilə gündəlik ümumi neft debitinin səviyyəsinə görə BP-nin dünya üzrə operatoru olduğu ən məhsuldar hasilat quyuları arasında ilk yerləri tutub.

2014-cü ildə ŞD əməliyyat xərclərinə təxminən 0,4 milyard, əsaslı xərclərə isə 3,9 milyard dollar vəsait xərcləyib ki, əsaslı xərclərin əksər hissəsi Şahdəniz Mərhələ 2 layihəsi ilə əlaqədar olub.

### Şahdəniz qaz və kondensat hasilatı

| | Hasilatın başlanma tarixi | Ölçü vahidi | Hasilat başlanandan 2014-cü ilin sonunadək | 2013 | **2014** |
|---|---|---|---|---|---|
| Təbii qaz | Noyabr 2006 | milyard kubmetr | 57,8 | 9,8 | **9,9** |
| | | milyard kubfut | 2 042 | 345,5 | **348,1** |
| | | milyon barel neft ekvivalenti | 352,0 | 59,5 | **60,0** |
| Kondensat | Noyabr 2006 | milyon barel | 118,2 | 19,6 | **18,7** |
| | | milyon ton | 14,8 | 2,5 | **2,3** |







Şahdəniz Mərhələ 2 üçün hər iki platformanın üst modulları və dayaq blokları uyğun olaraq Amek-Tekfen-Azfen (yuxarıda) və Bakı Dərin Özüllər Zavodu (aşağıda) istehsalat sahələrində qurulur.

**7**

dəniz hasilat platforması Xəzər dənizinin Azərbaycan sektorunda BP tərəfindən idarə edilir.



### Şahdəniz Mərhələ 2

Şahdəniz Mərhələ 2 (ŞD2) Azərbaycandan Avropaya və Türkiyəyə qaz çatdıracaq nəhəng bir layihədir. Bu layihə yeni Cənub Qaz Dəhlizi açmaqla Avropa bazarlarının qaz təchizatını və enerji təhlükəsizliyini gücləndirəcək. Bu, dünyanın ən böyük qaz işlənməsi layihələrindən biridir.

Sentyabrın 20-də Səngəçal terminalında Cənub Qaz Dəhlizinin təməlqoyma mərasimi keçirildi. Bu, nəhəng Şahdəniz yatağından hasil ediləcək illik 16 milyard kubmetr qazın təxminən 3 500 km uzunluğunda boru kəməri vasitəsilə Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, və İtaliyaya nəql edilməsinə imkan verəcək layihənin gerçəkləşdirilməsində əlamətdar bir mərhələdir. İlk qazın nəqli 2018-ci ilin sonlarına planlaşdırılır və onun Gürcüstan və Türkiyəyə satışı nəzərdə tutulub. Avropaya ilk təchizat isə 2020-ci ilə gözlənilir.

Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) genişləndirilməsi və ŞD2 layihəsinin ümumi dəyəri təxminən 28 milyard dollar olacaq.

ŞD2 layihəsinə körpü ilə birləşdirilən iki yeni platforma və 26 sualtı quyu, suyun 550 metrədək dərinliyində inşa olunan 500 km uzunluğunda sualtı boru kəmərləri və Səngəçal terminalının genişləndirilməsi daxildir.

2014-cü ildə layihə çox yaxşı irəliləyiş edərək bir sıra işlərin vaxtından əvvəl görülməsinə nail oldu. Bu nailiyyətlərə tikinti sahələrinin modernləşdirilməsi, sualtı qurğuların, platformaların üst modulları və dayaq bloklarının quraşdırılmasına başlanması daxildir. Mühəndis-layihələndirmə, tikinti və təchizat işləri üzrə təxminən 10 milyard dollar dəyərində əsas müqavilələrin əksəriyyəti imzalandı və Azərbaycandakı bütün tikinti sahələrində işlər başlandı. 2014-cü ilin sonuna qədər Azərbaycanda bütün əsas müqavilələr üzrə tikinti işlərinə 9 500-dən çox işçi cəlb olunmuşdu ki, onların da 90%-i Azərbaycan vətəndaşlarıdır.

2014-cü il boyunca "İstiqlal" və "Heydər Əliyev" qazma qurğuları ŞD2 öncəqazma proqramını dəstəkləmək üçün qazma əməliyyatlarını davam etdirdilər. Bu iki qazma qurğusu artıq ilk qaz hasilatına hazırlıq üçün yeddi hasilat quyusunu tamamlayıb.

### Səngəçal terminalı

Neft və qaz Azəri-Çıraq-Dərinsulu Günəşli (AÇG) və Şahdənizdən sualtı boru kəmərləri ilə Səngəçal terminalına gəlməkdə davam etdi.

Terminalın gündəlik texnoloji emal gücü hazırda 1,2 milyon barel neft və 29,5 milyon kubmetr Şahdəniz qazı təşkil edir. AÇG səmt qazı da daxil olmaqla qaz üzrə ümumi texnoloji emal və ixrac gücü gündəlik 49,3 milyon standart kubmetrdir.

Qaz CQBK ilə və terminalın qaz emal qurğularını "Azəriqaz"ın milli qazpaylama şəbəkəsinə birləşdirən ARDNŞ qaz kəməri ilə ixrac edilir.

2014-cü ildə Səngəçal terminalından 298,5 milyon bareldən artıq neft ixrac edildi. Bunun 260 milyon bareldən çoxu Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri, 31,4 milyon bareldən çoxu Qərb İxrac Boru Kəməri (QİBK), təxminən 5,3 milyon bareli dəmir yolu və təxminən 1,84 milyon bareli kondensat ixrac xətti ilə ixrac edilib.

ŞD2 layihəsi üçün texnoloji emal qurğularının təmin olunması məqsədilə Səngəçal terminalının genişləndirilməsi üzrə iş davam edib. Daimi qurğuların tikintisi 2014-cü ildə qrafik üzrə irəliləyib. Tikinti sahəsi 9 000 ton poladla təmin edilib və boru estakadalarının quraşdırılması başlanıb. Payavurma işləri qrafikdən əvvəl tamamlanıb, qapalı və açıq drenajların qazılması da daxil olmaqla yeraltı işlər sürətlə irəliləyib.

Sayı artan işçilərə xidmət üçün müvəqqəti obyektlər üzrə mühüm nailiyyətlər əldə olunub. 2014-cü ilin sonunda iş sahəsində təxminən 2 000 işçi çalışırdı. Bu rəqəm 2015-ci ilin sonuna doğru 3 000-ə yaxınlaşacaq.

**Şahdəniz Mərhələ 2 və Cənub Qaz Dəhlizi**






Səngəçal terminalı: BP-nin Xəzərdə əməliyyatçısı olduğu bütün obyektlər üçün strateji mərkəzdir.

## Bakı-Tbilisi-Ceyhan boru kəməri

Uzunluğu 1 768 km olan BTC boru kəməri 2006-cı ilin iyun ayında istismara verilib. O vaxtdan 2014-cü ilin sonuna qədər BTC ilə təxminən 280 milyon ton (2,1 milyard barel) xam neft daşınaraq 2 750-dən artıq tankerə yüklənib və dünya bazarlarına yola salınıb.

Hazırda BTC-nin gündəlik ötürmə qabiliyyəti 1,2 milyon bareldir. 2014-cü ildə bu boru kəməri ilə 34,8 milyon ton (262 milyon barel) xam neft ixrac edilərək Türkiyənin Ceyhan limanında 362 tankerə yüklənib. Avqustda BTC Ceyhanda 2 milyardıncı barel neftin tankerə yüklənməsini qeyd etdi.

BTC boru kəməri hazırda əsasən Azərbaycandan AÇG-də hasil edilən nefti və Şahdənizdə hasil olunan kondensatı nəql edir. Bundan əlavə, Türkmənistandan və Qazaxıstandan gələn xam neft də BTC ilə nəql olunmağa davam edir.

2014-cü ilin fevralında Azərbaycan Resbublikası Dövlət Neft Şirkətinin (SOCAR) işlətdiyi Şimal İxrac Boru Kəmərinin (ŞİBK) axın istiqaməti uğurla dəyişdirildi. Bu, BP ilə SOCAR-ın ŞİBK boyunca bəzi obyektləri fəaliyyətə gətirmək üçün göstərdikləri birgə səylər nəticəsində baş verdi. ŞİBK həcmlərinin BTC ilə daşınmasına imkan yaradan kommersiya sazişlərinin imzalanması başa çatdırıldı.

## Cənubi Qafqaz Boru Kəməri

Uzunluğu 691 km olan Cənubi Qafqaz Boru Kəməri (CQBK) 2006-cı ilin sonlarından istismar olunur. Kəmər Şahdəniz Mərhələ 1 qazını Azərbaycana və Gürcüstana, 2007-ci ilin iyulundan isə Türkiyəyə çatdırır. 2014-cü il ərzində kəmərin gündəlik ötürücülük gücü 18,3 milyon kubmetr qaz olub.

2014-cü ildə CQBK üzrə əməliyyat xərcləri təxminən 50 milyon, əsaslı xərclər isə 0,9 milyard dollar təşkil edib.

### CQBK-nin genişləndirilməsi layihəsi

2014-cü ildə CQBK-nin genişləndirilməsi (CQBKG) layihəsi üzrə müqavilələrin bağlanmasını davam etdirdik. Əsas müqavilələrin əksəriyyəti artıq imzalanıb, Azərbaycan və Gürcüstanda boru kəməri marşrutu boyunca işlər başlanıb. Əsas nailiyyətlərə Azərbaycanda ilk 200 km boyu torpaq sahələri üçün icazələrin alınması, Gürcüstanda isə 1-ci kompressor stansiyasının tikintisinə başlanması daxildir.

Boruların daşınıb gətirilməsi 2014-cü ildə başlanıb və bu iş 2015-ci il boyunca həyata keçirilərək 2016-cı ilin əvvəlinədək davam edəcək. Ümumilikdə 19 yük partiyası ilə 40 000-dən çox boru seqmenti gətiriləcək. 2015-ci ildə CQBKG fəaliyyətlərinə Azərbaycan və Gürcüstanda boru kəməri tikintisinin başlanması daxildir.

## Qərb İxrac Boru Kəməri

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin əməliyyatçısı kimi BP həmçinin QİBK-ni idarə edir. Uzunluğu 829 km olan bu kəmər nefti Xəzər hövzəsindən Səngəçal terminalı vasitəsilə Gürcüstanın Qara dəniz sahillərində yerləşən Supsa terminalına nəql edir. 1997-ci ildən sonra BP və onun tərəfdaşları boru kəmərində əsaslı təmir işləri həyata keçirib. 2014-cü ildə bu boru kəməri vasitəsilə Səngəçal terminalından 31,4 milyon barel neft nəql edilib.

**Azərbaycanda BP-nin əməliyyatçısı olduğu layihələrdə tərəfdaşların iştirak payı**[a]
(%)

Azəri-Çıraq-Dərinsulu Günəşli (AÇG)

| | |
|---|---|
| 1. BP | 35,7828 |
| 2. SOCAR | 11,6461 |
| 3. Şevron | 11,2729 |
| 4. İNPEKS | 10,9644 |
| 5. Statoyl | 8,5633 |
| 6. EksonMobil | 8,0006 |
| 7. TPAO | 6,7500 |
| 8. İTOÇU | 4,2986 |
| 9. ONGC | 2,7213 |



Bakı-Tbilisi-Ceyhan (BTC)

| | |
|---|---|
| 1. BP | 30,10 |
| 2. AzBTC | 25,00 |
| 3. Şevron | 8,90 |
| 4. Statoyl | 8,71 |
| 6. Total | 6,53 |
| 5.TPAO | 5,00 |
| 7. Eni | 5,00 |
| 8. İTOÇU | 3,40 |
| 9. İNPEKS | 2,50 |
| 10. Konoko Fillips | 2,50 |
| 11. ONGC | 2,36 |



Şahdəniz / Cənubi Qafqaz Boru Kəməri (CQBK)[b]

| | |
|---|---|
| 1. BP | 28,83 |
| 2. TPAO | 19,00 |
| 3. Statoyl | 15,50 |
| 4. SOCAR | 10,0 |
| 5. LUKOYL | 10,0 |
| 6. NİKO | 10,0 |
| 7. SGC | 6,67 |



Şəfəq-Asiman / Dayazsulu Abşeron

| | |
|---|---|
| 1. BP | 50 |
| 2. SOCAR | 50 |



[a] Yuxarıda qeyd edilmiş layihələrdə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) öz ortaq şirkətləri tərəfindən təmsil olunur: AÇG – AzAÇG; Şahdəniz – AzŞahdəniz; BTC – AzBTC; CQBK – AzCQBK; Şəfəq-Asiman – ARDNŞ-nin Ortaq Neft Şirkəti.

## Dövri texniki xidmət işləri

Dövri texniki xidmət obyektlər işlək vəziyyətdə olduğu zaman həyata keçirilməsi mümkün olmayan mühüm texniki xidmət, təftiş və ya layihə işlərinin aparılması məqsədilə fəaliyyətdə olan obyektlərin planlaşdırılmış şəkildə dayandırıldığı dövrlərdə aparılır. AÇG-nin illik iş proqramı çərçivəsində, noyabr ayında Mərkəzi Azəri platformasında dövri texniki xidmət və Qərbi Azəri platformasında əsaslə təmir işlərini uğurla başa çatdırdıq. 2015-ci il üzrə planlara Qərbi Azəri və Çıraq platformaları, eləcə də Səngəçal terminalının Şahdəniz ərazisi daxildir. Bu planlı fasilələr əməliyyatların uzun müddət təhlükəsiz və etibarlı şəkildə həyata keçirilməsi üçün son dərəcə əhəmiyyətlidir.

## Geoloji kəşfiyyat işləri

Şəfəq-Asiman strukturunda 2012-ci ildə ilk dəfə aparılmış üçölçülü seysmik tədqiqatdan əldə olunmuş məlumatların emalını 2014-cü ildə başa çatdırdıq. Bunun indiyə qədər ölkə daxilində emal edilmiş ən böyük üçölçülü tədqiqat olduğu hesab edilir. Biz həmçinin seysmik məlumatların interpretasiyasını başa çatdıraraq, potensial perspektivli sahələrin texniki qiymətləndirilməsinə başladıq. Bu mərhələdən sonra ilk geoloji kəşfiyyat quyusunun planlaşdırılması üçün daha bir il tələb olunur.

Şəfəq-Asiman bloku Bakıdan təqribən 125 km (78 mil) cənub-şərqdə yerləşir. Blok dənizin dərinsulu hissəsində suyun dərinliyinin təxminən 650-800 metr olduğu ərazidə yerləşir və kollektorun dərinliyi təxminən 7 000 metrdir.

2014-cü ildə biz SOCAR-la Abşeron yarımadası ətrafındakı dayazsulu ərazidə potensial perspektiv strukturun birgə kəşfiyyatı və işlənilməsi üzrə yeni bir geoloji kəşfiyyat müqaviləsi imzaladıq. Müqavilə ərazisi yarımadanın cənubunda dənizin 40 metrədək dərinliyində yerləşir. Kollektorun potensial dərinliyi 3 000-5 000 metrdir.

Hasilatın pay bölgüsü sazişi 2015-ci ilin aprelində Milli Məclis tərəfindən ratifikasiya edildi. Bu, imkan verir ki, BP dünyanın digər yerlərində dayazsulu sahələrdəki təcrübəsini və təkmilləşmiş texnoloji həllərini Xəzərə gətirsin.

**BP AGT layihələri üçün məsul olan hüquqi şəxslər**

| Layihə | Operator | BP səhmlərini saxlayan şəxs |
|---|---|---|
| AÇG | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti<br>"Azerbaijan International Operating Company" | BP Eksploreyşn (Kaspian Si) Limited<br>"BP Exploration (Caspian Sea) Limited" |
| BTC | Ze Bakı-Tbilisi-Ceyhan Payplayn Kompani<br>"The Baku-Tbilisi-Ceyhan Pipeline Company" | BP Payplaynz (BTC) Limited<br>"BP Pipelines (BTC) Limited" |
| Şahdəniz | BP Eksploreyşn (Şahdəniz) Limited<br>"BP Exploration (Shah Deniz) Limited" | BP Eksploreyşn (Azərbaycan) Limited<br>"BP Exploration (Azerbaijan) Limited" |
| CQBK | BP Eksploreyşn (Şahdəniz) Limited (texniki operator)<br>"BP Exploration (Shah Deniz) Limited"[c] | BP Payplaynz (SCP) Limited<br>"BP Pipelines (SCP) Limited" |
| Şəfəq-Asiman | (təyin olunmalıdır) | BP Şəfəq-Asiman Limited<br>"BP Shafag-Asiman Limited" |

[b] Bu faiz göstəricilərində 2014-cü ilin may ayı TPAO şirkətinin Total şirkətindən satın alması elan olunmuş paylar nəzərə alınıb. 2014-cü ilin oktyabrında Statoyl Şahdəniz və CQBK-də öz paylarının Petronas şirkətinə satışı barədə elan verdi. Bu tranzaksiya 2015-ci ilin mayında başa çatdı.
Cənub Qaz Dəhlizi qapalı səhmdar cəmiyyətinin (SGC) Şahdəniz Mərhələ 2 və digər Cənub Qaz Dəhlizi layihələrində Azərbaycanın iştirak payını idarə etmək üçün təsis olunub, səhmdarları 51% Azərbaycan dövləti və 49% ARDNŞ-dir.
[c] Cənub Qaz Dəhlizi Midstrim şirkəti kommersiya opertoru kimi 1 may 2015-ci ildən Statoyl Azərbaycan AS şirkətini əvəz etdi.

Xəzər texniki təlim mərkəzində 100-ə yaxın texnikə sərişteyönümlü təlim keçildi.

# Əməkdaşlarımız

Bizim Azərbaycandakı uzunmüddətli uğurumuz əməkdaşlarımızın səriştəsi, peşəkarlığı, təcrübəsi və əzmkarlığından asılıdır.



## Nə edəcəyimizi demişdik

2014-18-ci illər üzrə milliləşdirmə planımıza uyğun olaraq yerli ixtisaslı işçilərimizin faiz göstəricisini daha da artıracağıq.

Yüksək vəzifəli yerli rəhbər işçilərin yetişdirilməsini davam etdirəcəyik.

İxtisas yönümlü təlim proqramları vasitəsilə yerli işçi heyətin inkişafına dəstəyimizi davam etdirəcəyik.

## Bu gün işlər nə yerdədir

2014-cü ilin sonunda Azərbaycandakı ixtisaslı daimi işçi qüvvəmizin 86%-ni ölkə vətəndaşları təşkil edib.

Yüksək vəzifəli yerli menecerlərin sayı əvvəlki illə müqayisədə 17% artaraq 230-a çatıb.

İl ərzində 67 yerli işçinin müxtəlif ixtisas dərəcələri və ya sertifikatlar alması üçün təhsilini maliyyələşdirdik.

## Daha nə etməyi planlaşdırırıq

Yerli işçi qüvvəsinin sayını artırmaq üçün beşillik milliləşdirmə planını həyata keçirməyi davam etdirəcəyik.

Yerli ixtisaslı işçilərin yüksək rütbəli rəhbər vəzifələr tutması üçün onların inkişafına dəstək verəcəyik.

Daha rəqabətədavamlı və kiçik təşkilat olmaq barədə biznesimizin gündəliyində duran hədəflərə cavab vermək üçün təşkilati strukturumuzu davamlı olaraq nəzərdən keçirəcəyik.

# İşçi heyətimizin idarə edilməsi

Məqsədimiz işçi heyətimizin istedadlarını inkişaf etdirmək, güclü cəhətlərimizi və bacarıqlarımızı daha da artırmaq üçün ən yaxşıları işə cəlb etməkdir.



BP əməkdaşları Səngəçal terminalının emal sahəsində.

**BP-nin Azərbaycandakı ixtisaslı daimi işçi heyəti**

Bu diaqramda yerli vətəndaşların faizi də göstərilib




**BP-nin Azərbaycanda işçiləri və agentlik müqaviləsi əsasında işləyən əməkdaşları**




BP-nin icra göstəriciləri yüksək səriştəli, əzmkar və istedadlı işçi qüvvəsindən asılıdır. Əməliyyatlarımızı təhlükəsiz və etibarlı şəkildə yerinə yetirmələri üçün onlara zəruri səriştələr aşılamağa çalışırıq. Bizim fərdi müxtəlifliklərə hörmətlə yanaşmaq və bütün əməkdaşlarımıza bərabər fürsət və imkanlar yaratmaq öhdəliyimiz var.

BP-nin Azərbaycandakı işçilərinin sayı il ərzində 490 nəfər artaraq 3 745-ə çatdı. Bu rəqəmə 3 393 daimi işçi də daxildir ki, onların 2 919 nəfəri yerli işçilər idi. Daha 73 nəfər yerli işçimiz xarici ezamiyyətdə olub.

2013-cü ilin sonuna 360 nəfər yerli və 508 nəfər xarici agentlik işçimiz vardı. Bu heyət BP üçün işləsə də, işə rəsmi şəkildə işəgötürmə agentlikləri tərəfindən götürülür. Yerli qanunvericiliyin tələblərinə əsasən, həmin işçilər müqavilə əsasında BP-yə və ya müvafiq icazə ilə neft və qaz layihələrində işləyən üçüncü tərəf podratçı şirkətlərə keçirildi.

Bir neçə mərhələdən ibarət bu köçürmə prosesini Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Miqrasiya Xidməti ilə əməkdaşlıq şəraitində uğurla idarə etdik. 2014-cü ilin sonunda 160 nəfər yerli və təxminən 200 xarici agentlik işçisini BP-nin müddətli müqavilələrinə keçirdik.

Eyni zamanda, rəqabətliliyimizi artırmaq və lazımsız mürəkkəblikləri aradan qaldırmaq üçün imkanlar axtarmağa davam edirik. Daha kiçik təşkilata çevrilmək barədə biznesimizin gündəliyində duran hədəflərə cavab vermək üçün bu səylər çərçivəsində təşkilati strukturumuzu nəzərdən keçirdik. Yeni təşkilati struktur 2014-cü il dekabrın sonunda təsdiqləndi. Nəticədə həm yerli, həm də xarici əməkdaşların tutduqları bəzi vəzifələr 2015-ci ilin əvvəli ixtisar olundu.

## Milli işçi qüvvəsinin inkişafı

Əsas prioritetlərimizdən biri Azərbaycanda güclü milli işçi qüvvəsi yetişdirməkdir. İş təcrübəsi az olan və ya heç olmayan gənclərin təliminə sərmaya qoyur, yeni istedadları cəlb edir və bütün karyera səviyyələrində işçilərimizə geniş çeşiddə inkişaf və karyera imkanları təklif edirik.

2014-cü ilin sonunda BP-nin Azərbaycandakı ixtisaslı daimi işçiləri arasında ölkə vətəndaşları 86% təşkil edirdi ki, bu da 2013-cü ilə nisbətən kiçik artımdır. Bütün ixtisaslı işçi heyətimiz üçün bu rəqəm 82% idi ki, bura hazırda müddətli müqavilə ilə işləyənlər də daxildir.

2014-cü ildə Azərbaycanda BP şirkətində işləyən yüksək vəzifəli yerli vətəndaşların sayı 230-a çatdı. Bu, yerli ofisdə işləyən yüksək vəzifəli menecerlərin ümumi sayının 41%-i və əvvəlki illə müqayisədə 17% artım deməkdir. Onların təxminən 22%-i qadınlardır, əksəriyyəti maliyyə və insan resursları şöbəsində işləyir. İl ərzində daha 34 yerli əməkdaş digər ölkələrə rəhbər vəzifələrə ezam olunub.

Azərbaycanda BP üçün işləyən orta səviyyəli menecerlərin 86%-dən çoxu (559 nəfərdən 482-si) ölkə vətəndaşları olub. Bundan başqa, daha 36 nəfər xaricdə orta səviyyəli vəzifələrə ezam olunub.

[a]Rəsmi olaraq BP tərəfindən işə götürülmüş ixtisaslı və ixtisaslaşmamış işçilər.

**Kamran Rzayev**
Milliləşdirmə və immiqrasiya üzrə menecer, BP AGT

"Beşillik milliləşdirmə planının bir hissəsi olaraq, işəgötürmədə prioritetlər mövcud yerli işçiləri öz inkişaf planları üzrə irəli aparmağa və xaricdən işçi gətirməzdən əvvəl təcrübəli işçilər tapmaq məqsədilə yerli milli bazarı öyrənməyə davam etməkdir. Beynəlxalq ofislərimizə ezam olunan Azərbaycan vətəndaşları hazırda xarici mütəxəssislər tərəfindən tutulan yüksək vəzifələrə potensial namizəd kimi nəzərdən keçirilir".



**86%**

2014-cü ilin sonuna Azərbaycandakı ixtisaslı işçilərimiz arasında ölkə vətəndaşlarının payıdır.



**Beşillik milliləşdirmə planı**

BP Azərbaycanda yerli işçi heyətinin sayını artırmaq və nəticədə 2018-ci ilin sonuna qədər yerli işçi heyətinin nisbətini 90%-ə çatdırmaq üçün işçilərin milliləşdirilməsi üzrə beşillik plan hazırlayıb. Bu plan BP-nin Azərbaycanda əməliyyatçısı olduğu layihələr üçün həm daimi, həm də müddətli müqavilə əsasında birbaşa işə götürdüyü ixtisaslı işçiləri əhatə edir.

Bu plan Azərbaycanda BP şirkəti ilə SOCAR arasında razılaşdırılaraq 2013-cü ilin noyabrında imzalanıb. Sənəd xarici vətəndaşların tutduqları hazırkı və gələcək vəzifələr üzrə milliləşdirmə qrafikini təsvir edir. Hədəflər funksional bölmələr və 2018-ci ilə qədər illər üzrə təsbit olunub. Biz bu plan üzrə irəliləyişimizi mütəmadi izləyəcəyik. Həmçinin 2014-cü ilin sentyabrında SOCAR-ın işəgötürmə proseslərimizdə iştirakını razılaşdıran anlaşma memorandumu imzaladıq.

Bununla yanaşı, öz milliləşdirmə planlarını hazırlayıb həyata keçirmələri üçün podratçılarımızı dəstəkləməyə davam edirik. O cümlədən öz təcrübəmizi bölüşür, icra indikatorlarının hazırlanmasında məsləhət verir, icra göstəricilərinin qiymətləndirilməsi çərçivəsində planın həyata keçirilməsinə nəzarət edirik.

## Əcnəbi işçi qüvvəsi

İşçi heyətimizi milliləşdirmək öhdəliyimizlə yanaşı, inanırıq ki, Azərbaycandan olan işçilərin xaricdə, əcnəbilərin də Azərbaycanda məqbul nisbətdə beynəlxalq təyinatı inkişaf üçün faydalıdır. 2014-cü ildə 100-dən artıq yerli əməkdaşımız BP-nin Azərbaycandan kənardakı obyektlərində əcnəbi mütəxəssis kimi işləyib. Onların 30%-dən çoxu quyular üzrə ixtisaslaşıb.

2014-cü ilin sonunda BP-nin Azərbaycanda işləyən 474 əcnəbi əməkdaşı vardı. Onların 60%-dən çoxu Avropa, təxminən 30%-i isə ABŞ-dan idi. Qalanları Avstraliya, Kanada, Kolumbiya, Misir, Hindistan, İndoneziya, Oman, Trinidad və Tobaqodan olub. İlin sonunadək ölkəyə 78 yeni əcnəbi işçi gəldi, 98-i isə ölkəni tərk etdi və faktiki azalma 20 nəfər oldu.

**BP-nin Azərbaycanda işəgötürmə üzrə statistik göstəriciləri[a]**

| | Ehtiyac olduqca işəgötürmə | | | | Məzunları işəgötürmə | | | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 2013 | | **2014** | | 2013 | | **2014** | | 2013 | **2014** |
| | Qadın | Kişi | **Qadın** | **Kişi** | Qadın | Kişi | **Qadın** | **Kişi** | | |
| Biznesə dəstək | 3 | | **4** | **1** | | | | | 3 | **5** |
| Əlaqələr və şirkətxarici işlər | 1 | 1 | | **2** | | | | | 2 | **2** |
| Uyğunluq və etika | | | **1** | **1** | | | | | | **2** |
| Mühəndis-texniki | 1 | 4 | | **3** | | 9 | **2** | **7** | 14 | **12** |
| Maliyyə | | 5 | | | 2 | 7 | | | 14 | |
| Sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühit | 2 | 14 | | **7** | 3 | 8 | **1** | **1** | 27 | **9** |
| İnsan resursları | 3 | 3 | **5** | **2** | 1 | 1 | **2** | | 8 | **9** |
| İnformasiya texnologiyaları və xidmətləri | | | | | 1 | 1 | | | 2 | |
| Əməliyyatlar | 2 | 2 | **2** | **11** | | | | | 4 | **13** |
| Tədarük və təchizatın idarə edilməsi | | | | | | | **1** | **3** | | **4** |
| Layihələr | 1 | 3 | **2** | **8** | | | | | 4 | **10** |
| Geoloji-geofiziki işlər | | 1 | | **3** | 1 | 3 | **2** | **3** | 5 | **8** |
| Vergilər | | | **1** | **1** | | | | | | **2** |
| Quyular | 5 | 6 | **1** | **4** | | 3 | **2** | **5** | 14 | **12** |
| Cəmi – məzunları işəgötürmə | | | | | 8 | 32 | **10** | **19** | 40 | **29** |
| Cəmi – NİMTP məzunları | | | | | 12 | 68 | **4** | **41** | 80 | **45** |
| Cəmi – ehtiyac olduqca işəgötürmə | 18 | 39 | **16** | **43** | | | | | 57 | **59** |
| Texnikləri işəgötürmə | | | | | | 101 | **1** | **112** | 101 | **113** |

[a] Bu cədvəl şirkətə yeni qəbul olunmuş insanların sayını əks etdirir.

## Gənc mütəxəssislikdən qlobal rəhbərliyə

BP AGT-də planlaşdırma və kommersiya əməliyyatları şöbəsinin rəhbəri Emil İsmayılov təxminən 120 peşəkardan ibarət bir qrupa rəhbərlik edir və regional rəhbər qrupunun üzvüdür. Eyni zamanda o, BP şirkətinin qlobal apstrim biznesinin maliyyə rəhbərliyinin də bir hissəsidir. Bundan əvvəl Emil demək olar ki, üç il London ofisimizdə müxtəlif yüksək rəhbər vəzifələrdə işləyib. Apstrim maliyyə şöbəsində planlaşdırma üzrə vitse-prezident kimi Emil şərq yarımkürəsinin çox hissəsinə görə məsuliyyət daşıyıb. "Həqiqətən qlobal səviyyədə işləmək möhtəşəm bir fürsət idi və nəhəng layihələr sürət götürməyə başlayan bir vaxtda Azərbaycana qayıtmağıma çox şad idim," o deyir.

Emil öz karyerasına 1998-ci ildə başlayıb. O, BP şirkətinin Azərbaycandakı "Çəllenc" proqramının birinci dalğasında iştirak edən uğurlu məzunlardan biri olub və xaricdə işləmək imkanı əldə edib. "Üç il ərzində daha böyük Britaniya biznesində 'çəllencer' kimi təcrübə qazandıqdan sonra mən əməliyyatlarımız genişlənməyə başlayan bir vaxtda Şahdəniz qrupuna qoşulmaq üçün 2003-cü ildə Azərbaycana qayıtdım," o xatırlayır. Az qala 20 illik karyerasına nəzər salan Emil deyir: "Karyeramın inkişafında 'Çəllenc' proqramı birinci böyük addım idi. Mənim hekayəm yerli kadrların inkişafına BP şirkətinin ayırdığı xüsusi diqqətin bariz nümunəsidir".



## İşəgötürmə

BP-nin məqsədi əməkdaşların bir-birinə hörmət və ləyaqətlə yanaşdığı və öz potensiallarını tam açа bildikləri pozitiv bir iş mühiti yaratmaq və saxlamaqdır. Bu məqsədə nail olmaq üçün düzgün insanların düzgün vəzifələrə seçilməsi zəruridir. Bizim əməkdaşların işə götürülməsi və işdə irəli çəkilməsini hər kəsə qabiliyyətinə görə imkan açan meritokratik qaydada etmək öhdəliyimiz var.

İşəgötürmə proseslərimizin şəffaflığına və səmərəliliyinə əmin olmaq üçün onları daim nəzərdən keçirir və monitorinqini aparırıq. Bundan əlavə, Britaniyada yerləşən müstəqil bir agentlik işəgötürmə fəaliyyətlərimizin keyfiyyətini yoxlamaq üçün mütəmadi olaraq qlobal sorğu aparır. Azərbaycanda BP sorğunun bütün müddəaları üzrə ən yuksək gostəriciyə malik ölkələr arasında olub.

2014-cü ildə biz hər il keçirilən Məzunların və yay təcrubəsi kecən tələbələrin işə qəbulu proqramımız çərçivəsində təqribən 4 300 ərizə qəbul etdik. İlkin seçmə mərhələsindən bunların 3 155-i keçdi, yekun müsahibə mərhələsinə isə 391 nəfər çıxdı. Sonda 49 tələbə yay təcrübəçisi və 70 yeni məzunu işə götürdük. Bunlardan 26 məzunu BP-də daimi işçi kimi "Çəllenc" proqramımıza qəbul etdik. Qalan 44 nəfər isə Neft-qaz ixtisaslı məzunların təkmilləşdirilməsi proqramına (NİMTP) qəbul olundu. "Çəllenc" və NİMTP barədə daha ətraflı məlumat üçün səhifə 17-ə baxın.

İl ərzində texniklərin işə cəlb olunması üçün iki kampaniya keçirdik, nəticədə 113 texnikə iş təklif olundu. Yeni işə götürülmüş texniklər dənizdəki və qurudakı iş sahələrinə göndərilməzdən əvvəl Xəzər Texniki Təlim Mərkəzində 18 aylıq intensiv ingilis dili və texniki təlim proqramı keçirlər.

BP-nin Azərbaycanda ehtiyac olduqda açılan bütün iş yerləri haqqında elanlar bp.com/xezer ünvanında verilir. 2014-cü ildə iş elanlarımızla bağlı 16 400-dən çox ərizə aldıq, 172 nəfər yerli işçini işə götürdük.

## Əməkdaşlarla ünsiyyət və münasibətlər

2014-cü ildə 1 700-dən artıq əməkdaş və ya Azərbaycan, Gürcüstan və Türkiyədən dəvət edilmiş şəxslərin 41%-i hər il işçi heyət arasında keçirilən sorğuda iştirak etdi. Yekun məmnunluq əmsalı inkişaf, işdən məmnunluq, rəhbərliyin davranışı, qazanc və iş mühiti sahələrini əhatə edir. Region üzrə əmsalımız 2014-cü ildə 78% oldu ki, bu da 2013-cü ildəki 75%-lə müqayisədə artımdır.

### Texniklərin forumu

BP-nin texniklərin forumu ön cəbhə ilə – hasilat platformaları, terminallarda və boru kəmərləri boyunca işləyən texniklərlə mühüm əlaqə vasitəsi olmaqda davam edir. Biz texniklərin təliminə və inkişafına böyük sərmayə qoyur və işçilərin bu qrupu ilə ən yüksək rütbəli rəhbərliyin müntəzəm görüşlərinin əhəmiyyətini başa düşürük. Bu görüşlərdə onlar rəy və təkliflərini verə, təcrübələrini bölüşə və onları narahat edən istənilən məsələni qaldıra bilirlər.

Bu forumlar ilk dəfə 2008-ci ildə təşkil olunub və indiyə qədər təqribən 540 nəfərin iştirakı ilə 18 forum keçirilib. Buraya 2014-cü ildə keçirilmiş və 70-ə yaxın texnikin iştirak etdiyi iki forum da daxildir.

### İşçiləri dinləmək üçün nahar yeməkləri

Bu nahar yeməkləri regional rəhbər qrupumuzun üzvləri ilə müxtəlif sahələrdə işləyən işçiləri qeyri-rəsmi nahar və bizneslə əlaqəli mövzuları açıq müzakirə etmək üçün bir araya gətirir. Bu naharlar işçilərə öz narahatlıqlarını bölüşməyə, suallarını verməyə və rəhbərlikdən birbaşa cavab almağa fürsət yaradır, rəhbərliyə isə təşkilatın müxtəlif təbəqələrinin fikirlərini dinləməyə imkan verir. 2014-cü ildə 90-dan artıq əməkdaşın iştirakı ilə altı belə nahar təşkil edilib.

### Kredit almağa dəstək proqramı

Kredit almağa dəstək proqramımızı 2012-ci ildə tətbiq etməyə başlamışıq. Şirkətdə ən azı üç il iş işləyən bütün Azərbaycan vətəndaşlarının bu proqramdan yararlanmaq hüququ var. Bu proqram çərçivəsində əməkdaşlar ev yaxud mənzil almaq və ya təmir etmək, ev tikdirmək, eləcə də 18 yaşına çatmamış övladlarının təhsili üçün kreditlərin ödənişində yardım almaq imtiyazı əldə edirlər.

İl ərzində 610-dan artıq əməkdaşımız bu proqram üzrə kredit almaq üçün ərizə verdi, bununla da iştirakçıların ümumi sayı 2 100-ü keçdi. Ümumilikdə, 2012-14-cü illər ərzində proqram üzrə verilən kreditlərin məbləği 25,6 milyon dollardan çox olub.

### Digər fəaliyyətlər

Azərbaycanda BP şirkətində üst-üstə 10 və ya 15 il işləyən əməkdaşlarımız yubiley münasibətilə uzunmüddətli xidmətə görə mükafatlandırılır. Mükafatlar ümumi görüşlərdə yüksək rütbəli rəhbərlik tərəfindən təqdim edilir. 2008-ci ildən bəri bu yolla 1 350-yə qədər işçinin fəaliyyəti qiymətləndirilib.





Texniki münsiflər heyəti 44 çəllencer və 23 yay təcrübəçisinin dördüncü regional “TexnoFest”ə təqdim etdiyi layihələri qiymətləndirdi (yuxarıda). Xəzər texniki təlim mərkəzində qazma idarəetmə otağının simulyasiyası (aşağıda).

**17%**

2013-cü illə müqayisədə 2014-cü ildə yüksək vəzifəli yerli menecerlərin sayında artımdır.



2014-cü ildə aktual məsələləri müzakirə etmək üçün altı ümumi görüş keçirilib. Regional daxili veb-saytımız informasiyanın yayılması və müxtəlif kampaniyaların keçirilməsi üçün mühüm vasitə olub. 2014-cü ildə işçi heyəti üçün “Compass” jurnalının həm Azərbaycan, həm də ingilis dilində dörd buraxılışını nəşr edərək bütün regionda yaydıq.

## Təhsil və inkişaf

2014-cü ildə biz regionda əməyin təhlükəsizliyi, texniki, idarəetmə və biznes davranışları üzrə geniş çeşidli təlimlər təşkil etdik. Yerli qrupumuz tərəfindən ümumilikdə 12 000-dən artıq iştirakçısı olan 1 488 təlim sessiyası keçirildi. Bu sessiyaların 1 350-si və ya təxminən 91%-i Azərbaycanda keçirildi.

### Davamlı peşə təlimi

Yerli əməkdaşlarımıza öz ixtisas sahələri üzrə əlavə dərəcə və ya sertifikatlar almaqda kömək etmək məqsədilə maliyyə yardımı göstərməyə davam etdik. 2014-cü ildə ümumilikdə 67 əməkdaşımız bu proqram çərçivəsində yardım aldı. Onlardan 34 nəfəri Britaniya təhsil ocaqlarında magistr dərəcəsi almaq üçün ərizə verdi, qalan 33 əməkdaşımız isə magistratura səviyyəsində digər təhsil imkanlarını seçdi.

### “Çəllenc” və neft-qaz ixtisaslı məzunların təkmilləşdirilməsi proqramı

Bizim qlobal “Çəllenc” (“Sınaq”) proqramımız Azərbaycanda 2003-cü ildən fəaliyyətdədir. Onun məqsədi məzunların illik işə götürülməsi proqramı vasitəsilə seçilmiş və sənayedə cüzi ilkin təcrübəsi olan istedadlı məzunları inkişaf etdirməkdir. “Çəllencer” adlandırılan iştirakçılar üçillik proqram ərzində, adətən, iki-üç fərqli vəzifə yerinə yetirirlər. Proqramı başa vuranda onların tam səriştəli peşəkarlara çevrilməsi gözlənir.

2012-ci ildən başlayaraq “Çəllenc” proqramına qəbul ola bilməyən seçilmiş məzunları inkişaf etdirmək üçün Neft-qaz ixtisaslı məzunların təkmilləşdirilməsi proqramına başladıq. Bu 11 aylıq təlim proqramı həmin məzunlara öz texniki biliklərini, biznes haqqında məlumatlarını, ünsiyyət bacarıqlarını və ingilis dili biliklərini dərinləşdirməyə kömək etmək üçün hazırlanıb. Proqram Heriot-Uatt Universiteti və “TTE-Petrofak” şirkəti ilə birgə həyata keçirilir.

2014-cü ildə “çəllencer” kimi işə götürülmüş 26 məzundan əlavə, daha 35 məzun da NİMTP-ni başa vuraraq “Çəllenc” proqramına qoşuldu. Ümumilikdə 61 “çəllencer”i işə götürdük ki, bununla da onların Azərbaycanda sayı 195-ə çatdı.

### Xəzər texniki təlim mərkəzi

Bu mərkəz BP və tərəfdaşları üçün Azərbaycan, Gürcüstan və Türkiyədə daha çox işçi heyətinin milliləşdirilməsini həyata keçirməkdə misilsiz xidmət göstərir. Bundan əlavə, Oman və İraqdakı əməliyyatlarımızın mərkəzin xidmətlərindən istifadə etməsi ilə bura BP qrupu üzrə yüksək ixtisaslı kadrlar hazırlayan regional mərkəzə çevrilib. 2004-cü ildən bəri mərkəzin Hazırlıq proqramından təxminən 1 050 texnik məzun olub. 2014-cü ildə təxminən 100 texnik təlimi başa vuraraq qurudakı və dənizdəki obyektlərə yola salınıb.

### Digər proqramlar

Mühəndisliyə keçid proqramı müvafiq təcrübəyə malik bütün maraqlanan əməkdaşları təşkilat daxilində mühəndislik karyerasına təşviq etmək məqsədilə tərtib olunub. Uğurlu namizədlər təcrübə və qabiliyyətlərinin qiymətləndirilməsinə əsaslanan ciddi seçmə prosesi ilə müəyyən olunur. 2014-cü ildə 111 ərizə aldıq, bu namizədlərdən 21-i ilə müsahibə aparıldı və yeddi mühəndislik ixtisası üzrə 14 nəfər seçildi.

Öz işçi heyətimizə və onların uyğun ailə üzvlərinə dil təlimi təklifimizi davam etdirdik. 2014-cü ilin sonuna qədər 280 nəfər ingilis dili dərslərinə gedirdi. Azərbaycan dilini seçənlər isə 90 nəfərdən çox idi. Bundan əlavə, əcnəbi əməkdaşlara Azərbaycanın tarixi, mədəniyyəti və adət-ənənələri barədə söhbətlər təklif edilir.

# Davranış kodeksimiz

Davranış kodeksimiz əməkdaşlarımızın riayət etməli olduqları əsas qaydaları təsbit edir, dəyərlərimizin və qrup standartlarımızın qərarlarımızı necə istiqamətləndirməli olduğunu izah edir.



BP əməkdaşı mütəmadi keçirdiyimiz ümumi yığıncaqlardan birində sual verir.

**Azərbaycanda intizam pozuntuları**
(davranış kodeksinin fəsli üzrə)

- Təhlükəsiz, məsuliyyətli və etibarlı iş
- İşçilərimiz
- Aktivlərimiz və maliyyə sahəsində düzgünlüyümüz
- Birgə işlədiyimiz hökumət orqanları və icmalar




Dəyərlərimiz
*bp.com/values*

Davranış kodeksimiz
*bp.com/codeofconduct*

Davranış kodeksimiz etik standartları təyin edir və gündəlik işgüzar fəaliyyətimizdə doğru olanı etməkdə bələdçimizdir.

Yeni, sadələşdirilmiş davranış kodeksi 2014-cü ilin iyulunda qüvvəyə mindi. Yeni kodeks bir biznes kimi daha sadə, daha məqsədyönlü olmağımızı əks etdirir. O, əməkdaşlarımızın hərəkətlərinə istiqamət vermək üçün ən mühüm prinsip və gözləntiləri təsbit edir. Həmçinin BP-nin daha təfsilatlı müvafi q tələbləri göstərilən faydalı resurslara keçidləri sadalayır.

Dəyər və davranışlarımız yeni kodeksimizin təməli olmaqda davam edir. Kodeksin məğzi odur ki, BP əməkdaşlarının düzgün qərar verəcəyinə, bir sual və ya onları narahat edən məsələ varsa, öz sözlərini deyəcəyinə inanır.

## Etik normalar və qaydalara uyğunluq üzrə təlim

Davranış kodeksi, rüşvət və korrupsiya, çirkli pulların yuyulması, mənafelərin toqquşması barədə icbari e-tədris modullarından əlavə etik normalar və qaydalara uyğunluğa aid üz-üzə seminarlar keçiririk. Azərbaycan, Gürcüstan və Türkiyədə BP işçiləri və podratçıların əməkdaşları daxil olmaqla təxminən 2 600 nəfər 2014-cü ildə təşkil etdiyimiz 140-a yaxın üz-üzə təlim sessiyasında iştirak etdi.

Bütün podratçılarımızdan və onların əməkdaşlarından kodeksimizə uyğun işləmələrini gözləyirik və onları buna təşviq edirik. İşgüzar tərəfdaşlarımızla gözləntilərimiz barədə açıq danışmağa çalışırıq, uyğun olduqda müqavilə öhdəliklərini razılaşdırırıq və onların gözləntilərimizi və ya müqavilə öhdəliklərini doğrultmadığını hesab etdiyimizdə müvafiq tədbirlər görürük.

2014-cü ildə həm də gözləntilərimiz haqqında və qeyri-etik davranışın nə ilə nəticələnməsi barədə işgüzar tərəfdaşlarımızın məlumatlılığının artırılmasına diqqət yönəltdik. Məsələn, sentyabr ayında 50-dən artıq təchizatçı şirkətin yüksək vəzifəli rəhbərləri üçün rüşvətxorluq və korrupsiya əleyhinə təlimlər təşkil etdik.

## Sözünü azad şəkildə demək mədəniyyəti

Əməkdaşları, podratçıları və digər üçüncü tərəfləri davranış kodeksimizə əməl olunmaması ilə bağlı narahatçılıqları və ya sadəcə, hər hansı vəziyyətlə bağlı şübhələri varsa sözlərini deməyə təşviq edirik. Kodeksimizin və ya hüquqi tələblərin pozulması və ya potensial pozulması barədə xəbəri olan əməkdaşlar bu barədə birbaşa məlumat verməlidirlər.

### Dəyərlərimiz

- Təhlükəsizlik
- Hörmət
- Mükəmməllik
- Cəsarət
- Bir komanda

Nəyə inandığımız, hansı davranışı hədəf seçdiyimiz və bir təşkilat olaraq nəyə can atdığımız haqqında müştərək anlayışımızı ifadə edən beş dəyərimiz var. Məqsədimiz onların gündəlik işimizdə məsuliyyətli davranışa çevrilməsini təmin etməkdir. Bu dəyərlər bizim öz işçilərimizdən nə gözlədiyimizi müəyyən edir, qrup, komanda və fərdi səviyyədə necə işlədiyimizlə ayrı-ayrı fərdlərin mükafatlandırılmasını əlaqələndirən əməkhaqqı sxemi ilə gücləndirilir.

BP-nin “OpenTalk” (açıq söhbət) qlobal yardım xətti suallar vermək və ya narahatlıq doğuran məsələləri qaldırmaq üçün məxfi vasitədir. Müstəqil bir şirkət tərəfindən idarə olunan bu yardım xətti həftənin hər günü, gündüz və gecə istənilən vaxt işləyir və 75-dən artıq dildə zəngləri qəbul edir. “OpenTalk” vasitəsilə qaldırılan məsələlər qiymətləndirmə və müvafiq tədbirlərin görülməsi üçün təqdim edilir.

2014-cü ildə Azərbaycanda intizam tədbiri ilə nəticələnən 42 hadisə barədə məlumat verilib. Araşdırma nəticəsində bir sıra BP əməkdaşı, eləcə də podratçı və agentlik əməkdaşı işdən azad edilib.

İşçilər Mərkəzi Azəri dəniz platformasından növbə dəyişmə gəmisinə təhlükəsiz şəkildə endirildikdən sonra “froq” həyətdaşıma kapsulunu tərk edirlər.

# Əməyin təhlükəsizliyi

Təhlükəsiz, etibarlı və tələblərə uyğun əməliyyatların davam etdirilməsini diqqət mərkəzində saxlayırıq, əməyin təhlükəsizliyi və əməliyyat risklərinin idarə olunmasını bütün işlərimizdə rəhbər tuturuq.

## Nə edəcəyimizi demişdik

BP-nin Meksika körfəzindəki hadisə barədə tədqiqatında (Blay hesabatı) göstərilən tövsiyələrin tamamlanması istiqamətində irəliləməyə davam edəcəyik.

Podratçılarla birgə əməkdaşlığımızı müdaxiləyə ehtiyac yaratmayacaq şəkildə davam etdirəcəyik.

Regionda böhran hallarının və davamlılığın idarə olunması üzrə qabiliyyətimizi gücləndirəcəyik.

## Bu gün işlər nə yerdədir

Regionda Blay hesabatındakı 26 tövsiyədən 25-ni yerinə yetirdik.

Qeydiyyata alınan xəsarətlərin tezliyi 2013-cü il ilə müqayisədə 67%, nəqliyyat vasitələri üzrə qəzaların ümumi səviyyəsi isə 40% azalıb.

Böhran hallarının və davamlılığın idarə olunması üzrə işlərimizdə əsas diqqəti cavab tədbirləri üzrə səriştələrimizi daha da gücləndirilməyə, BP standartları və ən yaxşı sənaye təcrübələrinə davamlı şəkildə uyğunlaşdırmağa yönəltdik.

## Daha nə etməyi planlaşdırırıq

Blay hesabatındakı qalan tövsiyəni həyata keçirmək yönündə işimizi davam etdirəcəyik.

Podratçılarla işlərimizə əməyin təhlükəsizliyi mədəniyyətini aşılamağa davam edəcəyik.

Uzunmüddətli iri fövqəladə hallara və ya böhran hadisələrinə qarşı adekvat cavab tədbiri görmək qabiliyyətimizi yaxşılaşdırmaq istiqamətində işləyəcəyik.



# Əməyin təhlükəsizliyinin idarə edilməsi

Əməyin təhlükəsizliyi bizim üçün ən prioritet məsələdir, o, rəhbərlik tərəfindən dəstəklənir və əməliyyatların idarə olunması sistemimiz vasitəsilə tətbiq edilir.



İşçilərimiz Qərbi Çıraq platformasında növbə dəyişərkən.

Təhlükəsiz və sağlam iş mühitinin yaradılması uğurumuzun təməlidir. İstər sahələrimizdə işləyən əməkdaşlarımızın, istərsə də əməliyyatlarımıza yaxın olan icmalarda yaşayan insanların təhlükəsizliyini təmin etmək öhdəliyimiz var.

## Əməliyyatların idarə edilməsi sistemi

BP-nin əməliyyatların idarə edilməsi sistemi (ƏİES) istismar əməliyyatları üzrə yaxşı iş təcrübəsi prinsiplərini təsbit edir. Bu sistem sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühit, korporativ məsuliyyət və əməliyyatların etibarlılığı, eləcə də texniki xidmət, podratçılarla əlaqələr və təşkilatdaxili təlimlər kimi əlaqədar məsələlərə dair BP-nin tələblərini ümumi idarəetmə sistemində birləşdirir. Hər bir biznes və ya əməliyyat bölməsi konkret əməliyyat risklərini aradan qaldırmaq və öz əməliyyatlarını həyata keçirmək üçün ƏİES-i tətbiq edir. O, insanlar, qurğu, proses və icraat başlıqları altında səkkiz əməliyyat elementini əhatə edir.

2014-cü ildə ƏİES-in strukturu yenilənib. Təhlükəsiz, etibarlı və standartlara uyğun əməliyyatlar aparmaq məqsədi dəyişməz qalmaqla indi o, daha yığcam, daha aydın, daha məntiqi və istifadə üçün asandır. O, iki hissədən ibarətdir, belə ki, birinci hissə "ƏİES nədir" sualının sadə xülasəsidir, ikinci hissə isə tələbləri əhatə edir.

ƏİES-ə daxil edilmiş icra göstəricilərinin təkmilləşdirilməsi dövrəsi fasiləsiz təkmilləşməyə yol açır. Burada əsas fikir biznes göstəricilərini yaxşılaşdırmaq, riskləri aradan qaldırmaq və biznes proseslərini daha sadə və səmərəli etmək üçün fürsətləri axtarmaqdır. Biz ƏİES tələbləri üzrə icra göstəricilərimizi özünütəftiş, yoxlama və audit vasitəsilə qiymətləndiririk.

Əməkdaşlarımızı çatışmazlıqları aradan qaldırmaq və işimizi daha təhlükəsiz, daha səmərəli və ƏİES-ə daha uyğun etmək üçün daim yollar axtarmağa təşviq edirik. İl ərzində Azərbaycanda sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühit, gəlirlər, xərclər və digər sahələr üzrə imkanlar açan 261 fasiləsiz təkmilləşmə layihəsi həyata keçirilib.

**Özünütəftişdən auditə – müdafiənin üç xətti**

**3** Qrup auditi risklərin idarə olunması məqsədi daşıyan seçilmiş fəaliyyətlərin effektivliyinin müstəqil şəkildə yoxlanmasını təmin edir.

**2** Əməyin təhlükəsizliyi və əməliyyat riskləri qrupumuz biznesi ƏİES-ə riayət etməkdə yardımçı vasitələr, məsləhət və texniki dəstəklə təmin edir.

**1** Təhlükəsiz, etibarlı və standartlara uyğun əməliyyatları təmin etmək üçün sahələrdə tələblərə riayət olunmasını yoxlamaq istiqamətində davamlı iş gedir.




## Sağlamlıq və fərdi təhlükəsizlik

Qurudakı və dənizdəki əməliyyatlarımızda müxtəlif peşə sağlamlığı və ilkin tibbi yardım bacarıqları, səhiyyə, peyvənd və təşviqat işlərini həyata keçiririk. Oktyabrda Azərbaycandakı yerli tibbi sığorta xidmətlərinə işçilərimizi və onların uyğun ailə üzvlərini əhatə edən önləyici tibbi müayinəni əlavə etdik.

2014-cü ilin noyabr ayında Londondan tibbi yoxlama qrupu sağlamlıq və sənaye gigiyenası üzrə fəaliyyətlərimizi təftiş etmək üçün Azərbaycana gəldi. Aldığımız rəy müsbət oldu və bəzi təşəbbüslərimiz nümunəvi kimi qiymətləndirildi.

2013-cü illə müqayisədə 2014-cü ildə qeydiyyata alınan xəsarətlərin tezliyi kəskin şəkildə 67% aşağı düşdü ki, bu da fərdi təhlükəsizliyin yaxşılaşdığını göstərir.

### Nəqliyyat vasitələrinin təhlükəsiz idarə edilməsi

Nəqliyyat vasitələrinin istifadəsi il ərzində 24%-dən çox artdı. Yol-nəqliyyat qəzalarının ümumi səviyyəsi 40% azalsa da, iki ciddi yol qəzası qeydə aldıq. Onlardan biri üçüncü tərəfə aid minik maşını ilə bizim podratçının yük maşını arasında olub. Hadisənin səbəbi minik maşını sürücüsünün qaydaları pozması olub və nəticədə üçüncü tərəfdən iki tələfat baş verib. İkinci qəza Səngəçal terminalındakı qeyri-əməliyyat sahəsində baş verib. Sürücü uyğun təhlükəsizlik qaydalarına riayət etmədiyinə görə podratçının yük maşını aşağı sürətlə hərəkət edərkən aşıb.

Sahələrin və podratçıların nəqliyyat vasitələrinin təhlükəsiz idarə olunması standartlarının tələblərinə riayət etməsi ilə bağlı audit, eləcə də gündəlik monitorinq aparmaqla sağlamlığa və əməyin təhlükəsizliyinə təminatı gücləndirmək planımızı həyata keçirməyə davam etmişik.

## İş gününün itirilməsi hadisələrinin tezliyi
(işlənmiş hər 200 000 saat üçün)




## Qeydiyyata alınan xəsarətlərin tezliyi
(işlənmiş hər 200 000 saat üçün)




[a] Amerika Neft İnstitutu.
[b] Beynəlxalq Neft və Qaz İstehsalçıları Assosiasiyası.

## Əməyin təhlükəsizliyi üzrə göstəricilər və iş mədəniyyəti

2014-cü ildə ümumilikdə yeddi yüksək potensiallı hadisə baş verib. Bunlardan beşi düşən əşyalarla, ikisi qazın havaya buraxılması ilə bağlı olub. Hadisələrin hamısı araşdırılıb, təcrübədən çıxarılmış dərslər barədə hesabat hazırlanıb və paylaşılıb.

Diqqəti insan xətaları barədə məlumatlılığa və prosedurlara əməl etməyə yönəltməklə əməyin təhlükəsizliyi mədəniyyətinin yaxşılaşdırılması istiqamətində işimizi davam etdirdik. 2014-cü ildə Şahdəniz və Çırağın dənizdə işləyən heyətləri üçün insan amili barədə məlumatlandırma təlimini yekunlaşdırdıq. Təhlükəsizlik təşəbbüslərini prioritetləşdirmək üçün əməyin təhlükəsizliyi mədəniyyəti üzrə müstəqil tədqiqat sifariş verdik. Tədqiqat bütün dəniz platformalarında hasilat və quyu əməliyyatlarını əhatə etdi. Həmçinin qəzaların araşdırılması zamanı insan amilini necə qiymətləndirdiyimiz təftiş olundu. Tədqiqat və təftişin tövsiyələrinə əsasən görüləcək işlər təhlükəsizlik göstəricilərimizin yaxşılaşdırılmasına kömək edəcək.

## Əməliyyatların təhlükəsizliyi

2010-cu ildə Meksika körfəzindəki dərin sularda baş vermiş hadisə üzrə tədqiqatda, Blay hesabatında qlobal qazma əməliyyatlarımızda riskin daha da azaldılması məqsədi daşıyan 26 tövsiyə verildi. BP bu tövsiyələrin həyata keçirilməsi üzrə işlərin gedişi barədə müntəzəm məlumat vermək barədə öhdəlik götürdü.

2014-cü ilin axırına yerinə yetirilmiş tövsiyələrin ümumi sayı 25 idi. Biz tələb olunan 163 fəaliyyətdən 92%-ni başa çatdırdıq, 2013-cü ilin sonuna isə bu rəqəm 85% idi. İl ərzində, altısı quyuda fontanın qarşısını alan preventor qurğusu ilə bağlı olmaqla, səkkiz tövsiyəni yerinə yetirdik. Bunlar yoxlama, texniki xidmət, balansdan silmə və etibarlılıq, eləcə də preventor tutucusunun konfiqurasiyası və texniki xarakteristikaları kimi sahələri əhatə edirdi.

Yerinə yetirilmiş bütün tövsiyə və fəaliyyətlər indi qlobal quyu təşkilatı daxilində ƏİES-in davamlı bir hissəsini təşkil edir.

### Audit və yoxlamalar

2010-11-ci illərdə aparılmış əməyin təhlükəsizliyi və əməliyyat risklərinə dair auditdən irəli gələn işlər 2014-cü ilin sonuna qədər, əsasən, başa çatdırıldı. Ümumilikdə, BP qrupunun əvvəlki auditlərindən irəli gələn işlərin 99%-ni tamamlamışıq.

2014-cü ildə Azərbaycan-Gürcüstan-Türkiyə (AGT) regionunda BP qrupunun iri bir auditindən keçdik. Dəniz platformaları, əməliyyat qurğuları və Səngəçal terminalında anbar sahəsi daxil olmaqla seçilmiş sınaq obyektləri üzrə riskin idarə edilməsi fəaliyyətlərimizin səmərəliliyi audit olundu. Bu audit riskin qiymətləndirilməsi və idarə edilməsi, proseslərin təhlükəsizliyi, dəyişikliyin idarə olunması və işə nəzarət də daxil olmaqla bir neçə ƏİES elementini əhatə etdi.

Əməliyyatlar üzrə qlobal təşkilatımız bütün midstrim və dəniz əməliyyatlarında özünütəftişi standartlaşdırmaq məqsədilə 2014-cü ildə AGT regionu üçün özünütəftiş proqramının hazırlanmasını başa çatdırdı.

### Mexaniki bütövlüyün idarə edilməsi

2014-cü il ərzində qurudakı və dənizdəki obyektlərimizdə cihaz və sistemlərin 300-dən artıq iri təftişini başa çatdırdıq.

Buraya ixrac qurğularında avadanlıq və boru kəməri sistemlərinin 90-a yaxın təftişi də daxildir. Bundan əlavə, korroziyadan müdafiənin qiymətləndirmə və modernləşdirmə işlərini, eləcə də bütün midstrim üzrə çay kəsişmələrinin təftişini yekunlaşdırdıq. Səngəçal terminalında konstruksiyaların, dayaqların və beton özüllərin 150-yə yaxın, ixrac kəmərləri qurğularında isə daha 10 təftişini başa çatdırdıq.

Dənizdəki işlərə Azəri və Çıraq platformalarında əsas karbohidrogen tutumlarının 30-dan çox invaziv təftişi daxil idi. Bir sıra platformalarımızda korroziyanın idarə edilməsi proqramını yerinə yetirdik. Bundan əlavə, Qərbi Çıraq platformasında məsafədən idarə olunan sualtı aparatla konstruksiyaların ilkin təftişini başa çatdırdıq.

## Təhlükəsizlik və böhran hallarının idarə edilməsi

Biznesimizə potensial təhlükələri əvvəlcədən görməyə çalışmaq, baş verə biləcək böhran və ya hadisəyə hazır olmaq üçün oturuşmuş proseslərimiz var.

### BP-nin Azərbaycanda əməyin təhlükəsizliyi üzrə göstəriciləri[c]

| | 2013 | **2014** |
|---|---|---|
| Ölüm halları | 0 | **0** |
| Yüksək potensiallı hadisələrin tezliyi[d] | 0,03 | **0,04** |
| İş gününün itirilməsi hadisələrinin tezliyi[e] | 0,03 | **0,00** |
| Qeydiyyata alınan xəsarətlərin tezliyi[f] | 0,27 | **0,09** |
| Yol-nəqliyyat qəzalarının ümumi səviyyəsi[g] | 1,38 | **0,83** |
| Qət edilmiş kilometrlər (milyon) | 19,51 | **24,24** |
| İşlənilmiş saatlar (milyon) | 29,96 | **32,18** |

[c] Bu cədvəl BP əməkdaşları və podratçılar üzrə məlumatları əks etdirir. BP-də xəsarət və xəstəliyə verilmiş təriflər ABŞ Peşə Sağlamlığı və Əməyin Təhlükəsizliyi İdarəsi tərəfindən müəyyənləşdirilmiş təriflərdən və bu təriflərin müvafiq şərhlərindən götürülüb. Buraya sırf layihələrə dair məlumatlar daxil deyil.
[d] Tezlik göstəriciləri hər 200 000 iş saatına uyğun hesablanıb.
[e] İş gününün itirilməsi hadisəsi işlə bağlı xəsarət və ya xəstəlik nəticəsində həmin şəxsin iş qabiliyyətini itirməsinə və bu cür hadisənin baş verdiyi gündən sonrakı ən azı bir normal iş növbəsinə çıxa bilməməsinə səbəb olan hadisə deməkdir.
[f] Qeydiyyata alınan xəsarət ilk tibbi yardımdan əlavə müalicə tələb edən işlə bağlı məruzə edilmiş bütün xəsarət hallarıdır.
[g] Yol-nəqliyyat qəzalarının ümumi səviyyəsi nəqliyyat vasitəsilə qət edilmiş hər milyon kilometr məsafəyə düşən məruzə edilmiş yol-nəqliyyat qəzalarının sayıdır.





Neft dağılmalarına qarşı cavab tədbirləri təlim-məşqi zamanı lokallaşdırıcı üzən sədlərin dənizə buraxılması (yuxarıda). Podratçıların illik rəhbərlik forumlarını sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitlə bağlı gündəliyimizdə duran məsələləri çatdırmaq üçün mühüm bir kanal kimi istifadə edirik (aşağıda).

**67%**

qeydiyyata alınan xəsarətlərin tezliyində 2013-cü illə müqayisədə azalmadır.

Şirkət olaraq bizim kollektiv məsuliyyətimiz zəmanət və aydın təhlükəsizlik strukturunu təmin etmək, fərqli biznes mühitlərində təhlükəsizlik baxımından narahatlıq doğuran məsələləri idarə etmək, BP-nin əməliyyatçısı olduğu obyektləri mühafizə etməkdir. Azərbaycanda BP-nin həm quruda, həm də dənizdə işlədiyi ərazilərin xarici perimetr boyunca mühafizəsini dövlət təhlükəsizlik orqanları həyata keçirir.

2014-cü ildə təhlükəsizliyin qüsursuz və biznes öhdəliklərimizə uyğun olmasını təmin etmək üçün podratçılarımız və tərəfdaşlarımızla birgə işlədik. BP əməliyyatçısı olduğu boru kəmərləri boyunca yerləşən rayonlarda ixrac boru kəmərlərinin təhlükəsizliyi üzrə yerli komissiyaların 10 iclasında iştirak etdi. Hökumətin İxrac Boru Kəmərlərinin Təhlükəsizliyi İdarəsinin (İBKTİ) ev sahibliyi etdiyi və yerli hüquq-mühafizə orqanlarının iştirak etdiyi bu iclaslar əməkdaşlıq üçün mühüm bir kanaldır.

İl ərzində BP-nin əməliyyatçısı olduğu boru kəmərlərinin mühafizəsi üçün təyin edilmiş atlı İBKTİ patrulunun sayı artırılıb 52-yə çatdırıldı. Bundan əlavə, 2014-cü ildə BP boru kəmərlərinin texniki vəziyyətinə nəzarət etmək və təhlükəsizliklə bağlı hər hansı problem barədə məlumat vermək üçün 84 atlı patruldan istifadə etdi. Onları dəyişkən hava şəraitində dəstəkləmək üçün BP ucqar ərazilərdə 12 əlavə sığınacaq təşkil etdi.

**Böhranların idarə edilməsi və fövqəladə hallarda cavab tədbirləri**

Böhran hallarının və davamlılığın idarə olunmasını planlaşdırmağımız əməkdaşlarımızın təhlükəsizliyini təmin etmək, fövqəladə hallara qarşı təsirli tədbirlər görmək və əməliyyatlarımızda potensial ciddi kəsilmələrin qarşısını almaqda kömək edir. Biz hər il böhran halları və davamlılıq üzrə potensial riskləri müəyyənləşdirir, öz komandalarımızın cavab tədbirlərinə hazırlığını yoxlamaq üçün müntəzəm təlim məşqləri keçiririk.

2014-cü ildə böhran hallarının və davamlılığın idarə olunması işlərimizdə əsas diqqəti cavab tədbirləri potensialının gücləndirilməsi, BP standartları və sənayenin ən yaxşı təcrübələrinə davamlı şəkildə uyğunlaşdırılmasına yönəltdik. BP qrupunun ekspertləri neft dağılmalarına qarşı hazırlığa baxış keçirmək və qrup tərəfindən müəyyənləşdirilmiş təcrübələrə uyğunluğu yoxlamaq üçün iki dəfə Bakıya gəldilər. Bu səfərlər zamanı verilən tövsiyələr fasiləsiz təkmilləşmə proqramımıza daxil edildi. Həmçinin neft dağılmalarına qarşı cavab tədbirləri üçün avadanlığın alınmasını başa çatdıraraq regionda cavab tədbirləri görmək imkanlarımızı daha da gücləndirdik.

2014-cü ildə dünyada qəbul edilmiş insident komanda sisteminin tətbiqinə başladıq. Tam işə düşəndə bu sistem region üzrə insidentlərin idarə edilməsi qruplarına (İİEQ) uzunmüddətli iri fövqəladə hallar və ya böhranlarda adekvat cavab tədbirləri görmək imkanı verəcək.

## Tərəfdaşlar və podratçılarla işimiz

Azərbaycanda Fövqəladə Hallar Nazirliyi (FHN) ilə tərəfdaşlığımız 2014-cü ildə daha da gücləndi. FHN təmsilçiləri mütəmadi olaraq İİEQ təlim məşqlərində və yerlərdə keçirilən təlimlərdə iştirak etdilər. Bundan əlavə, may ayında həm BP, həm də FHN-in resursları səfərbər edilərək neft dağılmasına qarşı cavab tədbirləri üzrə birgə təlim məşqi uğurla keçirildi. Gürcüstanda başqa bir irimiqyaslı təlimdə BP-nin cavab tədbirləri üzrə podratçıları, avadanlıq və resursları sərhədi keçərək səfərbər edildi, hadisə yerindəki fəaliyyətlər Azərbaycandan FHN də daxil olmaqla fövqəladə hallara qarşı cavab tədbirləri üzrə milli qurumlarla əlaqələndirildi.

Bizim etibarlı və məsuliyyətli operator kimi fəaliyyət göstərə bilməyimiz qismən podratçılarımızın bacarıqları və icra göstəricilərindən asılıdır. Standart müqavilələrimizə sağlamlıq, əməyin təhlükəsizliyi, təhlükəsizlik və ətraf mühitlə bağlı tələblər daxildir. Zəruri hallarda iş sahəsindəki risklərin idarə olunması üçün bizim və podratçılarımızın təhlükəsizliyin idarə olunması sistemlərinin necə birgə fəaliyyət göstərəcəyini müəyyənləşdirmək üçün əlaqələndirici sənədlər hazırlanır. Seçilmiş podratçılar bu əlaqələndirici sənədlərdə, eləcə də sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit planlarında müəyyən edilmiş prosedurlara əməl olunmasını təmin edəcək konkret tədbirlər işləyib hazırlayır. BP bu tədbirlərin keyfiyyət və effektivliyinə nəzarət edir, müəyyən edilmiş hər hansı çatışmazlıqla bağlı məlumat verir.

2014-cü ilin iyununda regional prezidentin sədrliyi ilə podratçıların əməyin təhlükəsizliyi üzrə illik rəhbərlik forumuna ev sahibliyi etdik. Regionda əməyin təhlükəsizliyi göstəricilərinin yaxşılaşdırılması yollarını müzakirə etmək üçün BP-nin və əsas podratçılarımızın yüksək vəzifəli şəxslərini bir araya gətirdik. Əsas diqqət bu müzakirəni əvvəlkilərin üzərində qurmağa və 2013-cü il forumunda götürülmüş öhdəliklər nəticəsində əldə edilən irəliləyişə yönəldi. Forumun bir nəticəsi kimi, hər podratçının rəhbərliyi prosedurlara uyğunluğu irəli aparmaq üçün rəhbərliyə aid konkret fəaliyyət planı işləyib hazırlamaq barədə fərdi öhdəlik götürdü.

Ətraf mühit üzrə mütəxəssislərimiz Səngəçal terminalı ətrafında torpaq və bitki örtüyünün tədqiqatını həyata keçirir.

# Ətraf mühit

## Biz başa düşürük ki, ətraf mühitə təsirlərin idarə olunması neft və qazın məsuliyyətli şəkildə hasil olunması prosesinin mühüm bir hissəsidir.



### Nə edəcəyimizi demişdik

Neft dağılmasının nəticəsini daha yaxşı proqnozlaşdırmaq üçün modelləşdirmə vasitələrinin hazırlanmasını davam etdirəcəyik.

Dənizdəki platformalarımız üçün çirkab sularının emalı qurğularını daha da təkmilləşdirəcəyik.

Lay sularının artan həcmlərini idarə etmək üçün imkanlarımızı genişləndirəcəyik.

### Bu gün işlər nə yerdədir

Sahilyanı ərazi və qurudakı boru kəmərlərinin marşrutu üçün ətraf mühit və sosial-iqtisadi sahə üzrə həssas zonaların xəritələri yenilənib hökumət orqanlarına təqdim olunub.

2014-cü ildə ətraf mühitin monitorinqi ilə bağlı 21 tədqiqat aparılıb. Bununla da 2004-cü ildən bəri aparılan tədqiqatların sayı 171-ə çatıb.

Ümumilikdə yenidən laya vurulan suların həcmi 16% artıb.

### Daha nə etməyi planlaşdırırıq

Müntəzəm keçirilən müstəqil auditlər vasitəsilə ətraf mühitin idarə edilməsi sistemimizin ISO 14001 sertifikatını əldə saxlayacağıq.

Dənizdə, quruda və sahilyanı ərazilərdə tədqiqatlardan ibarət ətraf mühit üzrə monitorinq proqramlarımızı davam etdirəcəyik.

Qazın məşəldə yandırılması, çirkab və lay sularının idarə olunması kimi mövzularda əlaqədar hökumət orqanları ilə əməkdaşlığı davam etdirəcəyik.

# Təsirlərin idarə edilməsi

Tərəfdaşlarımız adından istismar etdiyimiz obyekt və qurğuların ətraf mühitə təsirini müntəzəm olaraq ölçmək və minimuma endirmək üçün müfəssəl prosedurlarımız var.

**Xalis İXQ emissiyaları**




**Ümumi qeyri-istixana qazı emissiyaları – NOx və SOx**
(ton)




**Hər obyekt üzrə ümumi qazın məşəldə yandırılması**
(min ton)




Həcmləri yuxarıdakılara nisbətən az olduğundan aşağıdakı platformaların məşəldə yandırılma göstəriciləri cədvələ daxil edilməyib: "İstiqlal" qazma qurğusunda 2012-ci il üzrə 1100 ton, "Heydər Əliyev" qazma qurğusunda 2013-cü il üzrə 1200 ton. Şahdəniz platformasında məşəldə yandırılma olmayıb.

Azərbaycandakı ətraf mühitin idarə edilməsi sistemimiz (ƏMİES) İSO 14001 sertifikatını əldə saxlamaq üçün müstəqil audit olunur. 2014-cü ildə müntəzəm keçirilən audit proqramı Şərqi Azəri və Çıraq platformalarını, təchizat bazamızı və Səngəçal terminalını əhatə etdi. Bundan əlavə, Qərbi Çıraq platforması və mərkəzi ofislərimiz ilk dəfə audit olundu. Proqram adları çəkilən obyektlərin standartın tələblərinə uyğun olduğunu təsdiqlədi. Azərbaycandakı əməliyyatlarımız üçün İSO 14001 sertifikatının əhatə dairəsi yeni obyektləri daxil etmək üçün genişləndirildi. 2013-cü ilin auditindən irəli gələn islahedici fəaliyyət tələbləri təkmilləşdirilmiş fəaliyyət planına əsasən yerinə yetirildi.

## Atmosferə emissiyalar

İstixana qazı emissiyalarımız (İXQ) daxili yanma mühərrikləri, yanacağın isitmə qurğularında yandırılması və çıxarıla bilməyən qazın məşəldə yandırılması nəticəsində əmələ gəlir. 2014-cü ildə havaya 4 067 000 ton İXQ buraxmışıq ki, bu da 2013-cü ildəki göstərici ilə müqayisədə 29%-dək çoxdur. Artımın başlıca səbəbi Qərbi və Şərqi Azəri platformalarında daha çox qazın məşəldə yandırılması, eləcə də Qərbi Çırağın işə salınması oldu. Hələ də İXQ-nin yaranmasında Səngəçal terminalının (ümumi həcmin təxminə 22%-i), Mərkəzi Azəri və Dərinsulu Günəşli platformalarının böyük payı var.

2013-cü il ilə müqayisədə NOx emissiyalarımız 26% artaraq 11 179 tona çatdı. Bu, yanacaq qazından istifadənin 19% artması ilə əlaqədardır. Oxşar artım SOx emissiyalarında da baş verib. Buna logistika əməliyyatlarının daha intensiv aparılması ilə bağlı dizel yanacağından istifadənin 26% artması təsir göstərib. SOx emissiyalarının digər mənbələrinə Şahdəniz platforması və Səngəçal terminalı aiddir.

## Qazın məşəldə yandırılması

2014-cü ildə Azərbaycandakı obyektlərimizdə qazın məşəldə yandırılmasında əvvəlki illə müqayisədə 61% artım oldu, yandırılan qaz 256 min tondan 413 min tona çatdı. Qərbi Çıraq platformasının istismara verilməsi, Mərkəzi Azəridəki iri cari təmir işləri zamanı hər üç platformada qazın məşəldə yandırılması və Çıraqdan Neft daşlarına qazın nəqlində məhdudiyyətlər bu artıma təsir göstərən əsas amillərdir.

## Neft dağılmaları[a]

2014-cü ildə BP Azərbaycanda altı neft dağılması qeydə alıb, bunlardan beşi tam lokallaşdırılıb. Dağılmış 14311 litr materialın 14271 litri və ya 99,7%-i toplanılıb. Yalnız 40 litr neft əsaslı qazma məhlulu ətraf mühitə daxil olub.

Bu göstərici neft dağılması hallarının sayının (2013-cü ildə 11 dağılma olmuşdu), lokallaşdırma nisbətinin (2013-cü ildə 95%) və ətraf mühitə daxil olan materialın həcminin azalması (2013-cü ildə 643 litr) baxımından ildən-ilə əhəmiyyətli yaxşılaşma deməkdir. Biz bütün karbohidrogen dağılmaları barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, həmçinin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə (SOCAR) rəsmi hesabat veririk.

**Enerji istehlakı**

| | 2013 | **2014** |
|---|---|---|
| Yanacaq qazı (min ton) | 800,4 | **949,7** |
| Dizel yanacağı (min ton) | 65,8 | **83,0** |
| Elektrik enerjisinin idxalı (meqavat saat) | 8 074 | **6 821** |

**Tullantı həcmləri**
(ton)

| | 2013 | **2014** |
|---|---|---|
| Təhlükəli tullantılar (çirkab suları istisna olmaqla)[b] | 94 958 | **314 462** |
| Təhlükəsiz tullantılar | 15 216 | **13 535** |
| Lay suyu | 4 469 658 | **5 358 943**[c] |
| Təmizlənməmiş çirkab suları[d] | 40 368 | **40 842** |

[a] Karbohidrogen dağılmaları bir barelə (159 litr, 42 ABŞ qallonuna bərabər) bərabər və ya daha böyük həcmdə hər hansı maye karbohidrogenin ikinci dərəcəli muhafizə qatına, yaxud açıq ətraf mühitə sızması kimi müəyyənləşdirilib.
[b] Buraya qazma şlamlarının və lay suyunun filtrasiyasından yaranan tullantılar daxildir. Şirkət xaricində utilizasiya edilən təmizlənməmiş çirkab suları daxil deyil.
[c] Səngəçal terminalında separasiya edilmiş AÇG və Şahdəniz həcmləri, eləcə də Şərqi Azəri platformasında separasiya edilmiş həcmlər daxildir.
[d] Təmizlənmək və çirkab sularının emalı qurğusu vasitəsilə ətraf muhitə axıdılmaq üçün qurğulardan Səngəcal terminalına göndərilən təmizlənməmiş çirkab sularını əks etdirir.

# Tullantıların idarə olunması

## Biz əməliyyatlarımızda tullantıların meydana gəlməsini aradan qaldırmaq, onları azaltmaq və təkrar istifadə etmək məqsədilə tullantıların idarə edilməsində bütün layihə dövrünü əhatə edən yanaşma qəbul etmişik.

2014-cü il ərzində Azərbaycandakı əməliyyatlarımızda ümumilikdə 368 839 ton bərk və maye tullantı formalaşıb. Təhlükəli tullantıların nəzərəçarpan artımına səbəb sahədən kənarda təmizlənməyə və utilizasiya edilməyə göndərilən lay sularının əhəmiyyətli həcmdə olmasıdır.

Təhlükəsiz tullantıların təxminən 42%-i (5 690 ton), təhlükəli tullantıların isə 20%-i (63 314 ton) təkrar emal edilib və ya podratçılarımız tərəfindən təkrar istifadə olunub. Kağız, taxta, plastik materiallar, əlvan və qeyri-əlvan metallar kimi əsas təhlükəsiz tullantılar yerli şirkətlər tərəfindən təkrar emal edilir.

Qazma şlamlarının təxminən 49 722 tonu Sərəncədəki təhlükəli tullantıların idarə edilməsi obyektində dolayı termal desorbsiya qurğularında və 2014-cü ildə quraşdırılmış yeni, daha səmərəli termomexaniki şlamtəmizləyici ilə emal edilib. Nəticədə qazma məhlulunun əsasını təşkil edən 6 065 ton həcmində maye karbohidrogen regenerasiya edilib ki, bunun da 857 tonu yanacaq kimi təkrar istifadə olunub, 4 476 tonu isə neft ixrac boru kəmərlərinə vurulub.

2014-cü ildə 69 193 ton tullantını Sumqayıtdakı təhlükəli tullantılar poliqonuna göndərməklə, əvvəlki illərdən Sərəncə obyektində saxlanılan emal edilmiş təhlükəli qazma şlamlarının tullantı poliqonuna basdırılmasını davam etdirdik. Sərəncədən Sumqayıtdakı təhlükəsiz tullantılar poliqonuna təhlükəsiz qazma şlamları göndərilməyib.

### Qazma şlamları

2014-cü ildə intensivləşdirilmiş qazma proqramımız dənizə atılan qazma şlamlarının həcminin üç dəfəyə yaxın artımına (39 714 ton) gətirib çıxartdı. Xüsusi tələblərə cavab verən dənizə atqı Çıraq platformasından sintetik əsaslı qazma məhlulu (SiQM), bütün digər platformalardan və səyyar qazma qurğularından isə su əsaslı qazma məhlulu (SuQM) ilə qarışmış qazma şlamları üçün nəzərdə tutulub.

İl ərzində Azəri-Çıraq-Dərinsulu Günəşli yatağında yenidən laya vurma quyularına 9745 ton şlam vurulub. Qalan 31 252 ton qazma şlamı (2013-cü illə müqayisədə 8% çox) Sərəncədəki təhlükəli tullantıların idarə edilməsi obyektinə gətirilib.

### Çirkab suları

2014-cü ildə çirkab sularının təmizlənməsi qurğusunun təmizlənməmiş çirkab sularının dənizə atqısı ilə nəticələnən dayandırılması hallarını daha da azaltdıq (21-dən 12-dək). Buna baxmayaraq axıdılan həcm 5% artaraq 195 m$^3$-dən 204 m$^3$-ə çatıb.

Biz müntəzəm olaraq çirkab sularının təmizlənməsi qurğusunun fəaliyyətini və təmizlənmiş suyun keyfiyyətinin monitorinqini və analizini aparırıq. Əksər dəniz platformalarında bağırsaq çöpü bakteriyaları üzrə nəticələr müəyyən edilmiş normanı keçib. Şahdəniz platformasında asılı bərk hissəciklərin ümumi miqdarı və oksigenə bioloji tələbat normadan artıq olub. Monitorinqlərin keçirilməsi tezliyini artırmışıq və səbəblərin təhlilini davam etdiririk.

Səngəçal terminalında təmizlənmiş çirkab sularının monitorinqinin nəticələri il boyu tələb olunan bütün parametrlərə uyğunluğu göstərib. İxrac boru kəmərləri boyunca biotəmizləmə nohurlarında bağırsaq çöpü parametrlərinin yüksəlməsi ilə bağlı problem 2014-cü ildə davam edib. Nohurların ərazisi boyunca suyun keyfiyyətinin qiymətləndirilməsi üçün xüsusi monitorinqə başlanılıb.

**16%**

2014-cü ildə yenidən laya vurulan lay suyunun həcmində 2013-cü ilə nəzərən artımdır.

**Əməliyyatlar zamanı suya atılmış qazma şlamları**
(ton)

| Yataq / qurğu | SuQM-li qazma şlamları | SiQM-li qazma şlamları | Qazma şlamlarının cəmi |
|---|---|---|---|
| Çıraq | 0 | 881,1 | 881,1 |
| Mərkəzi Azəri | 3 121,3 | 0 | 3 121,3 |
| Qərbi Azəri | 807,4 | 0 | 807,4 |
| Şərqi Azəri | 808,7 | 0 | 808,7 |
| Dərinsulu Günəşli və Qərbi Çıraq | 0 | 0 | 0 |
| Şahdəniz | 9 145,7 | 0 | 9 145,7 |
| "Dədə Qorqud" qazma qurğusu | 3 995,5 | 0 | 3 995,5 |
| "İstiqlal" qazma qurğusu | 12 897,0 | 0 | 12 897,0 |
| "Heydər Əliyev" qazma qurğusu | 8 057,7 | 0 | 8 057,7 |
| **Cəmi** | **38 833,4** | **881,1** | **39 714,4** |



Əməkdaşımız Səngəçal terminalında lay suyu nümunələrinin laboratoriya analizini aparır.

### Hasil edilmiş lay suyu

Azəri-Çıraq-Dərinsulu Günəşli (AÇG) yatağında lay suyu artmaqda davam etdi. 2014-cü ildə Səngəçal terminalında ümumilikdə 5 263 662 ton AÇG lay suyu separasiya edildi. Bu, illik 18,5% artımın göstəricisidir. Təmizləndikdən sonra bunun 5 077 256 tonu yenidən laya vurulmaq üçün dənizə qaytarıldı. Qalan 186 406 ton isə üçüncü tərəfə aid təmizləyici qurğuya göndərildi.

Şahdəniz yatağından hasil edilmiş lay suyu həcmləri AÇG-də olduğundan xeyli az oldu. 2014-cü ildə təxminən 30 906 ton separasiya edilərək Səngəçal terminalındakı xüsusi saxlama nohurlarına vurulub.

Oktyabr ayında Şərqi Azəri platforması AÇG əməliyyatları ərzində ilk dəfə hasil edilmiş lay suyunun separasiyasına başladı. Bu əməliyyat sahilə göndərilən neftin tərkibindəki suyun kəmiyyətini azaltmaq üçün edilir. Ümumilikdə Şərqi Azəri platformasında 64375 ton lay suyu separasiya edilib. Bu həcmlər yenidən kollektora vurulmaq məqsədilə Mərkəzi Azəri kompressiya və suvurma platformasına nəql edilir.

Hasil edilmiş lay suyunun ümumilikdə 5 059 108 tonu və ya 94,4%-i yenidən laya vurulub. Bu həcm 2013-cü ildəkindən 16% çoxdur.

Dənizə lay suyu atqılarının 70,6% artaraq 82 523 tona çatdığını müşahidə etdik. Bu həcmin, demək olar ki, hamısı (98,9%-i) 2014-cü ilin yanvarında Qərbi Azəri platformasında bir dəfəyə atıldı.

# Ətraf mühitin monitorinqi

Uzun illərdir ki, ətraf mühit üzrə tədqiqatlar fəaliyyətlərimizin yerli ətraf mühitlərə göstərdiyi təsirləri müəyyənləşdirmək və başa düşməkdə bizə kömək edir.

**Əməkdaşlıq**

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) ətraf mühit komandası ilə əməkdaşlığımızı davam etdiririk. Birgə işçi qrupumuz qazın məşəldə yandırılması, çirkab və lay sularının idarə olunması kimi mövzularda müntəzəm müzakirələr aparır. "Hər il ətraf mühitin monitorinqi fəaliyyətlərimizə SOCAR nümayəndələri də cəlb edilir", BP AGT regionunun ekoloji icazələr üzrə mütəxəssisi Səadət Qaffarova deyir.

O, əlavə edir: "Azərbaycanda sahilyanı ərazi və qurudakı boru kəməri marşrutları üçün həssas zonaların xəritələrini yenilədik və onları Ekologiya və Təbii Sərvətlər Nazirliyi, SOCAR və Fövqəladə Hallar Nazirliyi ilə bölüşdük." Bu xəritələr mühafizə üzrə görüləcək işlərin mühümlük dərəcəsini və cavab tədbirləri strategiyalarını formalaşdıran effektiv neft dağılmalarına qarşı cavab tədbirlərinin əsas tərkib hissəsidir.



**21**

ətraf mühitin monitorinqi üzrə 2014-cü ildə apardığımız tədqiqatların sayıdır.

2013-cü il tədqiqatının xülasəsini buradan oxuyun: *bp.com/xezer/ekologiya*





Səngəçal terminalı yaxınlığında səth sularının monitorinqi zamanı nümunələrin toplanması.

BP-nin Azərbaycanda operatorluq etdiyi dəniz və quru obyektləri yaxınlığında atmosferin monitorinqi proqramını həyata keçiririk. 2004-2014-cü illər ərzində ümumilikdə 171 monitorinq tədqiqatı başa çatdırılıb. Bura 2014-cü ildə aparılmış 21 ətraf mühit tədqiqatı da daxildir, onlardan 13-ü quruda, altısı dənizdə, ikisi isə sahil yaxınlığında aparılıb.

## Dənizdə və sahilyanı ərazidə tədqiqatlar

2014-cü ildə Çıraq, Mərkəzi Azəri, Şərqi Azəri və Qərbi Azəri[a] platformalarının yaxınlığında dəniz dibinin monitorinqini həyata keçirdik. Dəniz mühitində dəyişikliklərin baş verib-vermədiyini başa düşmək üçün Azəri-Çıraq-Dərinsulu Günəşli (AÇG) ərazisində və AÇG sualtı boruları boyunca bentik, su və plankton tədqiqatları apardıq.

Səngəçal terminalının genişləndirilən sahəsinə yaxın Səngəçal buxtasında sahilyanı zonada ətraf mühitin ilkin vəziyyətinin müəyyənləşdirilməsi üçün iki tədqiqat aparıldı. Bu tədqiqatlar Şahdəniz Mərhələ 2 layihəsi fəaliyyətlərinin Səngəçalın ətraf mühitinə təsirinin qiymətləndirilməsi üçün istifadə olunacaq.

Nümunələrin çoxlu sayda olmasına və hər bir nümunə üzrə bir sıra amillər təhlil edildiyinə görə izahlı hesabatların hazırlanması iki ilə qədər çəkir. Ona görə də bu hesabatda 2013-cü ilin tədqiqat nəticələrini xülasə şəklində təqdim edirik.

[a] Qərbi Azəri yaxınlığında tədqiqat 2013-cü ilə planlaşdırılmışdı, sonradan təxirə salındı.

## Quruda tədqiqatlar

2014-cü ildə aparılmış 13 tədqiqatdan yeddisi Səngəçal terminalını, dördü ixrac boru kəmərlərini, ikisi isə Sərəncədəki təhlükəli tullantıların idarə edilməsi obyektini (TTİEO) əhatə edib.

Bunlara Səngəçal terminalı, Sərəncə TTİEO yaxınlığında, Bakı-Tbilisi-Ceyhan (BTC) və Qərb İxrac Boru Kəməri boyunca atmosferdəki havanın keyfiyyətinin monitorinqi daxildir. Boru kəmərləri marşrutları boyunca və terminal yaxınlığındakı bir neçə yerdə gündüz və gecə vaxtlarında ətraf mühitdəki səs-küyün monitorinqi aparılıb.

Səngəçal terminalı yaxınlığında və ixrac boru kəmərləri boyunca qrunt sularının keyfiyyətinin, eləcə də səth sularının monitorinqini apardıq. Həmçinin Sərəncə TTİEO-da qrunt və səth sularının monitorinqi həyata keçirildi.

Səngəçal terminalı ətrafında torpağın və bitkilərin tədqiqatı aparıldı. Terminal yaxınlığında canlılar aləminin (quşlar, məməlilər, herpetofauna) iki tədqiqatı, eləcə də su-bataqlıq sahələri üzrə bir tədqiqat həyata keçirildi. Azərbaycanda ixrac boru kəmərləri boyunca bioloji bərpa, bitki və növ müxtəlifliyi üzrə tədqiqat aparıldı.

Sahibkarlığın inkişafı və təlim proqramımızda iştirak edən yerli şirkətlər Xəzər regionunda neft və qaz layihələrinə geniş çeşidli xidmətlər göstərir.

# Cəmiyyət

Biz istəyirik ki, cəmiyyətə təsirimiz maraqlı tərəflərlə açıq dialoqun dəstək verdiyi, sahibkarlığın və icmaların davamlı inkişafına yol açan, müsbət təsir olsun.



## Nə edəcəyimizi demişdik

Sosial investisiyanın idarə olunması üçün strukturlarımızı genişləndirəcəyik.

İnfrastrukturdan istifadə imkanını daha da asanlaşdıracaq, yerli sənayenin inkişafına dəstək verəcək, yerli potensialın yaradılmasına kömək edəcəyik.

Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü (MHŞT) ilə bağlı təcrübəmizi yerli və beynəlxalq auditoriyalarla bölüşəcəyik.

## Bu gün işlər nə yerdədir

Azərbaycanda sosial proqramlara tərəfdaşlarımızla birlikdə 5,9 milyon dollar vəsait xərclədik.

2014-cü ildə 100-dən çox yerli şirkətlə təxminən 2,15 milyard dollar dəyərində yeni uzunmüddətli müqavilələr imzaladıq. Bu şirkətlərin çoxu BP və tərəfdaşlarının təşkil etdiyi səriştə və bacarıqların inkişafı proqramlarından keçiblər.

Yeni MHŞT standartlarının həyata keçirilməsinə öz töhfəmizi verdik.

## Daha nə etməyi planlaşdırırıq

İcma bacarıq və səriştələrini inkişaf etdirən layihələr də daxil olmaqla, müxtəlif davamlı inkişaf təşəbbüslərini dəstəkləməyə davam edəcəyik.

Şahdəniz Mərhələ 2 və digər layihə işləri davam etdikcə yerli təchizatçılara imkanlar yaratmaq öhdəliyimizi qarşılayacayıq.

Əməliyyat və layihə sahələrimizə qonşu olan icmalarla yaxından işləməyə davam edəcək, onlara planlarımızı bildirəcək və onları narahat edən məsələləri dinləyəcəyik.

# Maraqlı tərəflərlə əməkdaşlıq

BP Azərbaycanda çox müxtəlif maraqlı tərəflərlə əməkdaşlıq etməklə bizə məsuliyyətli qərarların verilməsində kömək edən əlaqələr qurur.

**Elşad Nəsirov**
SOCAR-ın sərmayələr və marketinq üzrə vitse-prezidenti

BP bizim üçün dost – etibar etdiyimiz şirkətdir. Biz BP-ni çox etibarlı bir şirkət hesab edirik. BP-nin idarə etdiyi layihələrdə qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq edirik. Biz bunu yüksək qiymətləndiririk.



Gələcək enerji təmayüllərinə dair proqnozlarımız barədə "BP-nin Enerji Perspektivlərinə Baxışı 2035" hesabatımızı bu ünvandan oxuyun: *bp.com/energyoutlook*



BP əməkdaşları 21-ci Beynəlxalq Xəzər Neft-Qaz Sərgisində ziyarətçinin sualına cavab verirlər.

Hasilatın pay bölgüsü, tranzit əraziyə malik ölkə hökuməti ilə sazişlərimiz və digər razılaşmalar çərçivəsində qarşılıqlı maraq doğuran məsələlərlə bağlı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə işimizi davam etdirdik.

BP qrupunun baş icraçı direktoru Robert Dadlinin başçılıq etdiyi nümayəndə heyətini üç dəfə – iyun, sentyabr və dekabrda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəbul etdi.

Azərbaycan hökuməti ilə əməkdaşlığın bir hissəsi olaraq regional prezidentimiz Qordon Birrell Şahdəniz Mərhələ 2 və Cənub Qaz Dəhlizi də daxil olmaqla cari əməliyyat və layihələrimiz barədə yenilikləri çatdırmaq üçün yüksək vəzifəli rəsmilərlə müntəzəm olaraq görüşdü. İyun ayında Prezident İlham Əliyevi və qonaqlarını Bakıda keçirilən 21-ci Xəzər Neft-Qaz sərgisində BP-nin pavilyonunda qarşıladı.

İl ərzində digər ictimai sərgilərdə və tədbirlərdə də iştirak etdik. Oktyabr ayında səkkizinci Azərbaycan Beynəlxalq Təhsil və Karyera sərgisində pavilyonla təmsil olunduq, noyabrda isə Bakıda beşinci beynəlxalq Ətraf Mühit Sərgisində iştirak etdik.

Sentyabrda "Əsrin müqaviləsinin" – Azəri-Çıraq-Dərinsulu Günəşli üzrə hasilatın pay bölgüsü sazişinin 20-illik yubileyini qeyd etdik. Prezident Əliyevin ev sahibliyi etdiyi bayram tədbirinə dünyanın hər yerindən gəlmiş çoxlu qonaqlar, eləcə də sənaye, media və vətəndaş cəmiyyəti qurumlarının nümayəndələri qatıldılar.

Elə həmin gün Səngəçal terminalında Cənub Qaz Dəhlizinin təməlqoyma mərasimi keçirildi. Cənub Qaz Dəhlizi ölkələrini, Böyük Britaniyanı, ABŞ-ı, eləcə də SOCAR və BP-ni təmsil edən prezidentlər, nazirlər, yüksək vəzifəli şəxslər kəmərin ilk boru hissəsinə öz imzalarını qoydular. Bundan sonra boru hissəsi layihənin başlanması əlaməti olaraq torpağa basdırıldı.

İl ərzində Səngəçal terminalına 15-dən artıq ölkəni təmsil edən siyasətçi və jurnalistlər, tərəfdaşımız olan şirkətlərin qonaqları, eləcə də maliyyə, təhsil və digər təşkilatların nümayəndələri üçün 100-dən çox səfər təşkil etdik.

2014-cü il ərzində Azərbaycanda gördüyümüz işlərə kütləvi informasiya vasitələrinin böyük maraq göstərdiyinin şahidi olduq.

İl boyu yerli və xarici jurnalistlər üçün brifinqlər və müsahibələr təşkil etdik. Aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri BP-nin təşkil etdiyi bütün şirkətxarici tədbirlərə dəvət olundular. Biz həmçinin yerli jurnalistlər üçün iki media seminarı, eləcə də yerli və beynəlxalq media nümayəndələrinin iş sahələrimizə yeddi səfərini təşkil etdik. BP il ərzində Azərbaycanda ümumilikdə 21 press-reliz və biznes əməliyyatları üzrə dörd məlumat bülleteni buraxdı. Media mənsublarının suallarına cavab vermək üçün 24 saat fəaliyyət göstərən xəttimiz açıq oldu.

İki dildə fəaliyyət göstərən bp.com/xezer veb-saytımız Azərbaycan və regiondakı fəaliyyətlərimizi işıqlandırır və ictimaiyyətlə mühüm ünsiyyət vasitəsi olaraq qalır. 2014-cü ilin martında mobil telefonlar üçün və istifadəçi cihazına asan uyğunlaşan veb-saytımızı açdıq. Yeni veb-sayta il ərzində gündəlik 850-dən artıq daxilolma qeydə alındı. Saytın onlayn sorğu forması vasitəsilə 1516 sorğu aldıq ki, bu da 2013-cü ilə nisbətən 43% çoxdur.

## Gəlirlərin şəffaflığı

2003-cü ildə əsası qoyulmuş Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü (MHŞT) neft-qaz sektoru da daxil olmaqla mədən sənayesində şirkətlərin ödənişləri və hökumətlərin gəlirləri haqqında şəffaf hesabatların verilməsi üçün könüllü prosesin yaradılmasına kömək məqsədilə hazırlanıb. Bu təşəbbüs hökumətlər tərəfindən şirkətlər və vətəndaş cəmiyyəti qurumları ilə əməkdaşlıq şəraitində həyata keçirilir. MHŞT-nin təsisçi üzvü olaraq BP uzun müddətdir ki, bu beynəlxalq təşəbbüsü dəstəkləyir.

Azərbaycanın dünyada MHTŞ tələblərinə cavab verən ilk ölkə olması 2009-cu ildə təsdiq edilib. Azərbaycanda maraqlı tərəflərin yerli çoxtərəfli nəzarət qrupunun üzvü və iştirakçı şirkətlər qrupunun əlaqələndiricisi kimi biz yerli MHŞT prosesində fəal rol oynamışıq. Yerli işçi qrupların fəal üzvü kimi BP 2013-cü ilin may ayında qəbul edilmiş yeni MHŞT standartlarının tətbiqində iştirak edib. Bunun bir hissəsi olaraq yenilənmiş anlaşma memorandumu Azərbaycandakı təşəbbüs iştirakçıları arasında razılaşdırılıb və 2014-cü ilin iyun ayında imzalanıb. İyulda BP özünün 2013-cü ilin yanvar-dekabr dövrünü əhatə edən MHŞT hesabatını təqdim etdi.

Biz inanırıq ki, MHŞT üzvlüyü Azərbaycan və onun vətəndaşları üçün faydalıdır. BP Azərbaycanda MHŞT çərçivəsində hökumət, vətəndaş cəmiyyəti və mədən hasilatı sənayesində çalışan digər şirkətlərlə işləməkdə davam edəcək.

Azərbaycanda MHŞT
*eiti.az*

# Sahibkarlığın inkişafı

Biz Azərbaycanın biznes sektorunda lazımlı bacarıqların inkişafını dəstəkləyərək Xəzər regionu üçün davamlı yerli təchizat sisteminin yaradılmasına kömək edirik.



Üçüncü "Alıcı ilə tanış ol" tədbiri yerli şirkətlərə öz məhsullarını potensial müştərilərə nümayiş etdirmək üçün daha bir imkan yaratdı.

**Azərbaycanda BP və tərəfdaşlarının birbaşa əməliyyat və layihə xərcləri**
($ milyon)




[a] Bu məbləğə fiziki şəxslər vasitəsilə çəkilən xərclər də daxildir.
[b] 2013-cü ildə öz tərəfdaşlarımızla birlikdə 147 yerli şirkət və təşkilatla 1 milyard dollardan artıq dəyərdə yeni müqavilələr imzaladıq.
[c] 2013-cü ilin sonuna keçən il göstərilmiş 1 316 əvəzinə 1 374 idi.

2014-cü ildə Azərbaycanda tərəfdaşlarımızla birlikdə 100-dən çox yerli şirkətlə dəyəri təxminən 2,15 milyard dollar olan yeni uzunmüddətli müqavilələr imzaladıq. Şahdəniz Mərhələ 2 (ŞD 2) və digər layihələr irəlilədikcə biz yerli təchizatlar üçün imkanlar yaratmaq öhdəliyimizə sadiq qalırıq. ŞD2 üçün tələb olunan standartlara uyğun materiallar istehsal etmək üçün yerli potensialı qiymətləndirdik. Bir neçə yerli şirkət layihə üçün həm ayrılıqda, həm də beynəlxalq təchizatçılarla alyans halında potensial tədarükçülər kimi seçildi. Biz iki yerli şirkətə əməliyyat qurğularının və keyfiyyət sistemlərinin əsaslı yenidən qurulması ilə iki illik inkişaf proqramı keçməsinə kömək etdik. Bunun nəticəsi olaraq 2014-cü ildə ŞD2 üzrə iki iri müqavilə yerli istehsalçılar və alyanslarla imzalandı.

Tərəfdaşlarımızla birlikdə 2014-cü ildə 311 yerli şirkət və fiziki şəxslə iş gördük ki, bunların 266-sı (86%) kiçik və orta müəssisələrdir. 2014-cü ildə Azərbaycandakı birgə əməliyyatlarımıza və layihələrimizə ümumilikdə 2,71 milyard dollar xərclədik ki, bu da 2013-cü illə müqayisədə 37% artımdır. Bunun bir hissəsi kimi yerli şirkətlərlə ölkə daxilindəki xərclərimiz təxminən 1,79 milyard dollara qədər artdı. Bu, 2013-cü ilə nisbətən 12% artımdır, sahibkarlığın inkişafı səylərimiz ilə tələbləri planlaşdırmağımız arasında əlaqəni əks etdirir.

## Sahibkarlığın inkişafı və təlim proqramı

2007-ci ildən etibarən həyata keçirdiyimiz "Sahibkarlığın inkişafı və təlim proqramı" (SİTP) Azərbaycanda yerli bazarın inkişafına dəstək göstərmək üçün uzunmüddətli səylərimizin təməlini təşkil edir. Uzunmüddətli perspektivdə SİTP regionda sənayenin məhsul və xidmətlərin tədarükü üçün müraciət edə biləcəyi uyğun yerli şirkətlərin sayını artırmaq, bununla da yerli iqtisadiyyatın inkişafına töhfə vermək üçün nəzərdə tutulub.

2014-cü ilin sonuna qədər SİTP yerli şirkətlərə dəyəri 542,7 milyon dollardan çox olan müqavilələri saxlamaqda kömək etdi ki, bunun da təxminən 348,4 milyon dollardan çoxu Azərbaycanda BP ilə bağlanıb.

İl ərzində proqramı 28 şirkət uğurla başa vurub və bununla proqramı tamamlayan şirkətlərin sayı 177-yə çatıb. Bu dövr ərzində daha 245 şirkətin SİTP tərəfindən ilkin qiymətləndirməsi aparıldı. Proqram fəaliyyətə başladığı gündən bəri ümumilikdə 1 618 şirkəti qiymətləndirib.[c]

2014-cü ildə BP və tərəfdaşları SİTP-də əvvəllər iştirak etmiş 27 şirkətlə təxminən 72,5 milyon dollar dəyərində müqavilələr imzaladı. SİTP iştirakçısı olmuş on yeddi şirkət digər beynəlxalq şirkətlərlə təxminən 9,9 milyon dollar dəyərində, 14 şirkət isə yerli şirkətlərlə 7,5 milyon dollar dəyərində müqavilələr bağladı. 2014-cü ildə yerli iştirakçı şirkətlər yeni əsaslı avadanlığa təxminən 3,8 milyon dollar sərmayə qoydular, 246 nəfəri işə götürdülər.

### "Alıcı ilə tanış ol" sərgisi

BP və tərəfdaşları 2014-cü ilin iyununda üçüncü "Alıcı ilə tanış ol" sərgisini keçirdi. Bu tədbir 21-ci Beynəlxalq Xəzər Neft-Qaz Sərgisinin bir hissəsi olaraq Bakı Ekspo Mərkəzində təşkil olundu. Tədbir SİTP-də iştirak etmiş 70-dən artıq şirkətə imkan yaratdı ki, öz məhsul və xidmətlərini potensial müştərilərə nümayiş etdirsin. SİTP iştirakçıları potensial alıcılarla təxminən 730 məlumat mübadiləsi apardıqlarını və sərgidəki digər iştirakçı şirkətlərlə 520 biznes əlaqəsi qurduqlarını bildirdilər.

İnkişaf təşəbbüslərində xüsusi uğur qazanmış şirkətlərin qiymətləndirilməsi üçün SİTP-ni başa vurmuş dörd yerli şirkətə "İlin şirkəti", "Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühit üzrə ən yaxşı göstərici", "Ən yaxşı işəgötürən" və "Texnologiyadan ən innovativ istifadə" nominasiyaları üzrə yeni "Sahibkarlığın inkişafı mükafatları" təqdim olundu.

Tərəfdaşlarımızla birlikdə biz həmçinin neft-qaz üzrə ixtisaslaşmış yerli aparıcı universitetlərin "Alıcı ilə tanış ol" sərgisində iştirakına yardım etdik. Bu, universitetlərin sənaye, sahibkarlıq və potensialın yaradılması zəncirində mühüm bir bənd kimi irəliləmək üçün yaxşı bir fürsət idi.

**2,71 milyard**

dollar tərəfdaşlarımızla birgə Azərbaycandakı əməliyyat və layihələrə xərclədiyimiz məbləğdir.



**26**

müqavilə Sahibkarlığın inkişafı və təlim proqramını bitirmiş yerli şirkətlərlə 2014-cü ildə bağlandı.



# İcmalarla işimiz

Əməliyyatlarımızın ətrafındakı icmalarla açıq dialoqa və icmadakı çətinlikləri aradan qaldırmaq üçün birgə işə əsaslanan qarşılıqlı faydalı əlaqələr qurmağa çalışırıq.



Biz dövlət və özəl mühafizə xidməti işçilərinə Təhlükəsizlik və İnsan Haqları haqqında Könüllü Prinsiplərə dair təlimlərə dəstək verməyə davam etdiririk.



## Biznes fəaliyyəti və insan haqları

BMT-nin 2011-ci ildə təsdiq etdiyi İşgüzar Fəaliyyət və İnsan Hüquqlarına dair Rəhbər Prinsiplər bizneslərin insan haqları ilə bağlı daşıdığı bir sıra spesifik məsuliyyətləri təsbit edir. Bu Rəhbər Prinsiplərə uyğun olaraq biznesin rolu insan haqlarına hörmətlə yanaşmaq, qüvvədə olan bütün qanunlara riayət etmək və işgüzar fəaliyyətin səbəb ola biləcəyi və ya təsir göstərə biləcəyi hər hansı insan haqlarının pozulması hallarının, məsələn, fərdlər və icmalar üçün şikayətlərə baxılması üzrə işlək mexanizmlər vasitəsilə aradan qaldırılmasıdır.

BP, proseslərimizi Rəhbər Prinsiplərə uyğunlaşdırmaq istiqamətində iş aparmaq barədə öhdəlik götürüb. 2013-cü ilin mart ayında qüvvəyə minmiş İşgüzar Fəaliyyət və İnsan Hüquqları siyasətimizi, Rəhbər Prinsiplərin müvafiq bölmələrinə riayət etməklə və biznes fəaliyyətlərimizə istiqamət verən proseslərə və siyasətlərə tətbiq etməklə həyata keçiririk.

Biz harada işləyiriksə, öz layihə və əməliyyatlarımızda və ya bizim fəaliyyətlərimizlə birbaşa bağlı olan məsələlərdə diqqəti insan haqlarına aid potensial təsirlərə yönəldirik. İnsan haqları prinsipləri artıq BP-nin bir çox mövcud daxili qaydalarının, xüsusilə də davranış kodeksi, dəyərləri və əməliyyatlarla bağlı bir çox tələblərinin əsasını təşkil edir. 2014-cü ildə işəgötürmə, işçilərin rifahı, torpaq üzərində hüquqların əldə olunması və gəlir mənbələri, eləcə də təsirə məruz qalmış icmalarda digər aidiyyəti məsələləri əhatə edən sahələrdə insan haqları ilə bağlı potensial təsirləri müəyyənləşdirməyə və onları həll etməyə davam etdik.

Biz hasilat sənayesində əməliyyatların təhlükəsizliyini təmin etmək üçün normativ baza müəyyənləşdirən Təhlükəsizlik və İnsan Haqları haqqında Könüllü Prinsipləri qəbul etmişik.

Azərbaycanda əməliyyatlarımızın qorunmasına cəlb olunmuş bütün təhlükəsizlik heyətinə öz işlərinin insan haqları ilə bağlı mümkün təsirlərini başa düşmələrini təmin etmək üçün Könüllü Prinsiplərə dair təlimlərə dəstək verməyə davam etdik. Təhlükəsizlik orqanlarının 60-a yaxın əməkdaşı və təhlükəsizlik xidməti göstərən özəl podratçının 70-dən artıq işçisi 2014-cü ildə ilkin və təkmilləşdirmə təlimlərini başa vurdu.

2009-cu ildən boru kəmərləri boyunca təsirə məruz qalmış icmalara və fərdlərə normadan kənar güc tətbiqi və insan hüquqlarının pozulması halları barədə birbaşa BP-ni və təhlükəsizlik təminatçısını birgə araşdırma aparmaq üçün məlumatlandırmağa imkan verən qaynar xətt yaratmışıq. 2014-cü ildə təhlükəsizlik və ya insan haqları ilə bağlı bu xətt vasitəsilə heç bir məlumat verilməyib.

## İcmalarla əlaqələrin saxlanması

BP müntəzəm şəkildə Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz Boru Kəməri (CQBK) marşrutu boyunca yerləşən icmalara öz planları barədə məlumat verir və onları narahat edən məsələləri öyrənir. Biz icma görüşlərindən və maarifləndirici vəsaitlərin paylanmasından tutmuş rəsmi yazışma və icma üzvləri tərəfindən qaldırılmış sual və ya şikayətlərə baxılmasına qədər bir çox formalardan istifadə edirik.

İctimaiyyətlə əlaqələrdən məsul altı əməkdaşımız ictimaiyyətlə məsləhətləşmələrə və icmalarla əlaqədar şikayət və təkliflərə baxmağa davam ediblər. 2013-cü ildən boru kəmərləri ətrafında məhdudiyyətləri izah edən məlumatlandırıcı qovluqlar yayırıq. 2014-cü ilin sonuna qədər torpaq sahiblərinə, istifadəçilərinə və digər maraqlı tərəflərə təxminən 3 900 qovluq paylanmışdır. Biçənəyin yanması, boru kəmərinin göstərici lövhələrinin zədələnməsi və təhlükəsizlik zonalarına giriş qadağalarına əməl olunmaması kimi 3-cü tərəflərə aid qayda pozulması hallarının sayı 2013-cü ildə 43 dəfə qeydiyyata alındığı halda 2014-cü ildə bu rəqəm 36-ya enmişdir.

İcmalardan və digər maraqlı tərəflərdən 183 müraciət aldıq ki, bunlar da əsasən, boru kəməri dəhlizində aparılmalı olan infrastruktur işləri üçün icazə ilə bağlı idi. İlin sonuna qədər BP bu müraciətlərin 173-nə cavab verdi, qalan 10 müraciət isə 2015-ci il aprelin sonunadək cavablandırıldı. 2007-ci ildən boru kəmərləri marşrutu boyunca yerləşən icmalar üçün şikayətlərlə bağlı məsələlərin həlli mexanizmi fəaliyyət göstərir. 2014-cü ildə 27 şikayət daxil olub. Bunlardan dördü BTC/CQBK ilə, qalan 23-ü isə CQBK-nin genişləndirilməsi (CQBKG) layihəsi ilə bağlı idi.

ASAN vətəndaşlara xidmət üzrə dövlət agentliyi ilə əməkdaşlığımız nəticəsində torpaq sahibləri icarə müqavilələrini imzalamaq üçün tələb olunan bütün sənədləri vaxtlı-vaxtında əldə etdilər.



## Muzeylərə sərbəst giriş

Yanvar, mart və may aylarında bayram tətilləri zamanı Bakıdakı əsas kütləvi maraq ünvanlarına sərbəst girişə sponsorluq edirik. Məktəblilər, tələbələr, şəhərin sakinləri və qonaqları Milli Tarix Muzeyinə, Milli İncəsənət Muzeyinə, Qız qalasına və Şirvanşahlar sarayına dəvət olundular. Bu kampaniyalardan 45 000-dən çox adam faydalandı.




**Torpaq sahələri üzərində hüquqların əldə edilməsi**

CQBKG layihəsi üçün torpaq sahələri üzərində hüquqların əldə edilməsi prosesi 2014-cü ildə davam etdi. Təsirə məruz qalmış torpaq sahiblərinin və istifadəçilərinin müəyyənləşdirilməsinə və onlarla məsləhətləşmə görüşlərinə davam etdik. Marşrut boyunca təsirə məruz qalmış insanlarla anlaşma memorandumları imzalandı və 2014-cü ildə ilk 200 kilometr üzrə 950-dən artıq torpaq sahibi və istifadəçisi ilə icarə müqavilələri qüvvəyə mindi. Layihə planına əsasən, qalan icarə müqavilələri 2015-ci ildə imzalanacaq.

Kompensasiyaların verilməsi prosesi və prinsipləri "Torpaqlar üzərində hüquqların əldə edilməsi və kompensasiyaların verilməsi" çərçivə sənədinə uyğundur və təsirə məruz qalmış sahələr üçün kompensasiya ödənişlərinin verilməsi 2015-ci ildə tamamlanacaq. Sənədlə bu ünvanda onlayn tanış ola bilərsiniz: *bp.com/xezer*

## İnkişaf təşəbbüsləri

Biz Azərbaycanda əməliyyatlarımızın bir hissəsi olaraq müxtəlif icma və davamlı inkişaf təşəbbüslərini, o cümlədən yerlərdə təhsilin təkmilləşdirilməsi, icma əsaslı bacarıq və səriştələrin yaradılması və yerli sahibkarlığın inkişaf etməsi üçün zəruri təlim və maliyyənin təmin olunması üçün hazırlanmış layihələri dəstəkləyirik.

**Gənclərin Biznes Liderliyi layihəsi**

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi və Amerika Ticarət Palatası ilə birgə başlanmış ikiillik Gənclərin Biznes Liderliyi layihəsi 2014-cü ildə tamamlandı. Layihənin məqsədi Bakı və Gəncədəki universitetlərdən seçilmiş tələbələrdə gələcək biznes liderlərinə çevrilmək üçün lazım olan səriştə və qabiliyyətlər yaratmaq idi. Bu layihə yuxarı kurslarda təhsil alan 120 tələbəyə 33 yerli şirkətdə təcrübə keçməklə sinifdənxaric şəraitdə biznesin idarə edilməsi üzrə biliklərini inkişaf etdirməyə kömək etdi. İştirakçıların 33-ü müxtəlif şirkətlər tərəfindən iş təklifi aldı, ikisi isə BP-yə qəbul olundu. Layihənin icrasına məsul "Junior Achievement Azərbaycan" təşkilatı idi və layihənin ümumi büdcəsi 200 000 dollar idi ki, bu məbləğin yarısını BP və tərəfdaşları təmin etdi.

**Məktəbəqədər təhsil və qadınların sahibkarlıq fəaliyyəti**

Kiçik biznes təşəbbüsü kimi icma əsaslı məktəbəqədər təhsil xidməti modelini uğurla sınaqdan keçirdik. 2014-cü ildə Dəllər Cırdaxan və Düyərli icmalarında təxminən 200-dək uşaq yüksək keyfiyyətli dövlət məktəbəqədər xidmətləri, icma əsaslı məktəbə hazırlıq və uşaqların inkişafı proqramlarından faydalandı. Uşaqyönümlü "Addım-addım" təlim proqramını həyata keçirən iki tərbiyəçi, 27 ibtidai sinif müəllimi və 19 uşaq bağçası müəllimi, metodistlər və məktəb direktorları üçün daim təlim xidmətləri təmin olundu. Layihənin ümumi büdcəsi təxminən 113 000 dollar idi ki, bunun təxminən 30 000 dolları 2014-cü ildə xərcləndi.

**Yeni əyləncəli təhsil layihəsi**

Boru kəmərlərinin keçdiyi 11 rayonda 110-dan artıq uşaq bağçasını 500 ədəd işlənmiş və yeni kompüterlərlə təchiz etmək barədə 2014-cü ilin noyabrında PCs4KIDS Fondu ilə anlaşma memorandumu imzaladıq. Bu layihənin başlıca məqsədi ibtidai sinif və məktəbəqədər yaşlı uşaqlar üçün dərs zamanı əyləncəli kompüter proqramlarından istifadə etməklə fəal dinləmə və yaradıcı düşüncə qabiliyyətlərini inkişaf etdirmək üçün imkan yaratmaqdır.

# Təhsilin, mədəniyyətin və idmanın dəstəklənməsi

İcma inkişafı təşəbbüslərimizdən əlavə, təhsilə və səriştələrin yaradılmasına, mədəniyyətə və idmana yönəldilmiş çoxlu proqramları dəstəkləyirik.



Tələbələr BP-nin geologiya üzrə yay təcrübə kursunda praktik təcrübə qazanırlar.

**16**

tələbə 2014-cü ildə BP və onun tərəfdaşlarının təsis etdiyi təqaüdlərdən faydalandı.



## Təhsil təşəbbüsləri

Geniş çeşidli müxtəlif təhsil təşəbbüslərində iştirakımızda məqsəd Azərbaycanda neft-qaz sənayesinə dəstək vermək üçün yerli potensialın yaradılmasıdır.

**Azərbaycan neft və qaz təqaüd proqramı**
BP və tərəfdaşlarının maliyyələşdirdiyi bu təqaüd proqramı azərbaycanlı tələbələrə Türkiyə və Azərbaycan universitetlərində mühəndislik və yerşünaslıq elmləri sahəsində bakalavr və magistr təhsili almaq imkanı yaradır. 2014-cü ildə təqaüdün məbləği 692 000 dollara yaxın oldu ki, buraya yeni təqaüdçülər üçün ayrılmış 153 000 dollar da daxil idi.

2014-cü ildə Türkiyə universitetlərində magistr təhsili alan 4 və bakalavr təhsili alan 12 tələbə təqaüd almağa başladı. 12 belə tələbə məzunu işə götürdük, digər altı tələbə isə yay təcrübəsi proqramımıza qəbul edildi.

**Layihələri İdarəetmə Məktəbi**
BP və tərəfdaşlarının 2010-cu ildə təsis etdikləri Layihələri İdarəetmə Məktəbi (LİM) Azərbaycanın həm özəl, həm də dövlət sektorunda işləyən mütəxəssisləri üçün qlobal səviyyədə tanınan müfəssəl bir proqram üzrə təhsil almaq imkanı yaratmaqda davam edir. 2014-cü ilin sonunadək LİM-də 100-dən artıq özəl və dövlət təşkilatından təxminən 300 nəfər iştirak etmişdi.

Noyabrda proqramın üçüncü buraxılışını keçirdik. Corc Vaşinqton Universitetinin dinləyici sertifikatını almış ümumilikdə 256 məzundan 176 nəfəri həm də magistr sertifikatına layiq görüldü.

LİM layihənin idarə olunması üzrə qlobal təlim təşkilatı olan "ESI International" tərəfindən Xəzər Universiteti ilə əməkdaşlıqda həyata keçirilir. Bütövlükdə LİM üzrə BP və tərəfdaşlarının maliyyə sərmayəsi 2 milyon dollardan artıqdır ki, bunun 100 000 dolları 2014-cü ildə xərclənib.

**İcmalar üçün peşə təlimi**
2014-cü ilin sentyabr ayında BP öz tərəfdaşları adından yerli işçi qüvvəsinin təlim keçməsinə yardım etmək üçün Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə saziş imzaladı. Bu saziş çərçivəsində biz öz tərəfdaşlarımızla birlikdə Qaradağ rayonunun Səngəçal terminalına qonşu yaşayış məntəqələrindən seçilmiş 87 nəfər gəncə peşə təlimi keçirik. İxtisaslı texnik kimi yetişmələri üçün onlara təlim SOCAR-ın Qobustan Regional Təlim Mərkəzində verilir. Layihənin ümumi büdcəsi 624 000 dollardan artıqdır.

**Qafqaz Universiteti layihəsi**
Azərbaycanda yerli mütəxəssislərin inkişafına dəstək üçün Qafqaz Universitetindəki layihəmizi davam etdirdik. Bu layihə 2009-cu ildə başlanandan bəri BP iki kafedra və 16 laboratoriyanın yaradılması üçün 2,5 milyon dollardan artıq sərmayə qoyub. 2014-cü ilin mayında yeni yaradılmış kimya mühəndisliyi proqramı üzrə 23 tələbə öz bakalavr təhsilini başa vurdu. Bu əməkdaşlıq çərçivəsində universitet mexanika, kimya və mülki mühəndislik proqramlarının hər biri üzrə 30 yeni tələbə qəbul edib.

**BP-nin təqaüd proqramı**
Azərbaycanda neft-qaz ixtisasları ilə əlaqədar təhsil alan universitet tələbələrinə 2007-ci ildən təqaüd veririk. Bu, tələbələrə BP-nin maliyyələşdirdiyi 10-aylıq təlim kursu vasitəsilə texniki sahə üzrə ingilis dili vərdişlərini təkmilləşdirməyə imkan verir. 2014-cü ildə əvvəlki il universitetə qəbul olunarkən yüksək nəticə göstərmiş 60 təqaüdçü üçün kursu bir il artırmağı təklif etdik. 2014-cü ildə təqaüdlərin ümumi məbləği təxminən 59 000 dollar oldu.

**BP-nin tələbələr üçün geologiya üzrə yay təcrübə kursu**
2007-ci ildən BP Azərbaycanda tələbə və məzunların sedimentologiya və struktur geologiya üzrə yay çöl-səhra təcrübəsinə sponsorluq edir. Təxminən 190 iddiaçı arasından biliklərin qiymətləndirilməsi əsasında 28 universitet tələbəsi seçildi. Kurs zamanı tələbələr Abşeron və Xızı rayonlarına sahə səfərində nəzəri biliklər və praktiki təcrübə əldə etdilər. Kursu Azərbaycan Milli Elmlər Akademiyasının və Miçiqan Universitetinin (ABŞ) nümayəndələri apardılar.



İdmana dəstəyimiz çərçivəsində tədbirlərin idarə olunması üzrə səriştələrin inkişaf etdirilməsi və elit idmançılar üçün təlimlərin keçirilməsinə kömək etdik.

## "Təbrizin sehrli nağılları"

Azərbaycanın mədəni irsinin təbliğ olunması öhdəliyinin bir hissəsi kimi Mədəniyyət və Turizm Nazirliyi və "PAŞA Həyat Sığorta" ASC ilə birlikdə Azərbaycanın Orta əsrlər miniatür rəssamlığına həsr olunmuş "Təbrizin sehrli nağılları" kitabının nəşrinə sponsorluq etdik. Biz həmçinin kitabın ictimaiyyət üçün təqdimatını da keçirdik. Tədbirdə BP və SOCAR təmsilçiləri, hökumət rəsmiləri, səfirliklərin, qeyri-hökumət təşkilatlarının, beynəlxalq qurumların və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etdilər.





### Azərbaycan Biznes Keys Müsabiqəsi

Aparıcı universitetlərinin yuxarı kurs tələbələri arasında hər il keçirilən bu müsabiqəyə dəstək veririk. Bir-birləri ilə yarışan komandalar maliyyə və marketinqdən tutmuş mühasibat və menecmentə qədər sahələri əhatə edən biznes fənləri üzrə biliklərindən istifadə edərək real həyatdan götürülmüş biznes məsələlərini həll etməyə çalışırlar. Onlar öz həllərini Azərbaycandakı iri biznes təmsilçilərindən ibarət münsiflər heyətinə təqdim edirlər.

2014-cü ildə müsabiqə BP və digər sponsor sənaye təşkilatlarının dəstəyi ilə Azərbaycan Diplomatiya Akademiyasında (ADA) keçirildi. Müsabiqədə iştirak etmək üçün Azərbaycan və Gürcüstandan 45-dən artıq komanda müraciət etmişdi, onlardan finalçı kimi altı komanda seçildi. Müsabiqəyə hazırlaşmaq üçün tələbələr biznes keys təhlili və strategiya hazırlamaq barədə dörd həftəlik məşqlər və praktiki təlimlərdən keçdilər.

BP-nin sponsorluq töhfəsi 6 000 dollardan çox oldu, şirkətin əməkdaşları müsabiqəyə təlimçi, məşqçi və münsif kimi öz töhfələrini verdilər.

### Orta məktəblərdə mühəndis ixtisasının təşviqi

Şagirdlərin öz gələcək karyera yolunu seçmələrinə kömək məqsədilə noyabrda bir silsilə seminarlar keçirildi. Bu təşəbbüs Bakıdakı orta məktəblərdən texniki ixtisaslara marağı olan, ilkin ərizə və yoxlama prosesi vasitəsilə seçilmiş 200-ə yaxın məktəblini bir araya gətirdi. Təşəbbüs Təhsil Nazirliyi tərəfindən tam dəstəkləndi və "Gənc mühəndislərin inkişafı" ictimai birliyi tərəfindən həyata keçirildi. İctimai birliyin üzvlüyünə BP-nin Azərbaycandakı çoxlu sayda peşəkar mühəndisləri də daxildir.

## İdmanın inkişafına dəstəyimiz

2016-cı il Rio de Janeyroda keçiriləcək Yay Olimpiya Oyunları istiqamətində Milli Olimpiya və Paralimpiya Komitələri ilə rəsmi tərəfdaş kimi işləməyi davam etdirdik. Buraya Azərbaycan Milli Olimpiya və Paralimpiya komandalarına və bizim səfirlərimiz kimi seçiləcək atletlər qrupuna sponsorluq daxil idi.

2014-cü ildə Bakıda keçirilən yeniyetmələr arasında atletika üzrə Avropa təsnifat turnirinə dəstəyimiz çərçivəsində gənc könüllülərin hazırlanması proqramına sponsorluq etdik. Otuz universitet tələbəsi gənc komanda lideri kimi seçildi və onlara təlim verildi. Onlar turnirin müxtəlif komandalarından 1 000 nəfərə yaxın könüllüyə təlim keçdilər.

Bu turnirdə Avropanın təxminən 40 ölkəsindən 700-ə yaxın atlet bir araya gəldi. Turnir 2014-cü ilin avqust ayında Çinin Nanjinq şəhərində keçirilən Yeniyetmələrin Yay Olimpiya oyunlarına lisenziya almağa imkan yaratdı.

### Bakı 2015 Oyunlarına dəstək

Bakı 2015 Avropa Oyunları 2014-cü il iyunun 4-də BP-ni rəsmi tərəfdaş elan etdi. BP şirkəti oyunların neft və qaz tərəfdaşına çevrildi, həmçinin razılaşmaya əsasən Azərbaycanda yüksək səviyyəli idmançıların yetişdirilməsinə dəstək oldu.

BP həmçinin 2014-cü ilin dekabrında ictimaiyyətə təqdim edilmiş Bakı 2015 Oyunlar Akademiyası təşəbbüsünün eksklüziv rəsmi tərəfdaşı oldu. Bu innovativ təlim proqramı Bakı 2015 Oyunları üçün peşəkar bacarıqların davamlı irsinin yaradılmasını dəstəklədi. Proqram universitet məzunları daxil olmaqla yerli heyət üzvlərinin inkişaf etdirilməsi, çoxsaylı idman növlərini əhatə edən mötəbər tədbirlərin səmərəli şəkildə keçirilməsi, eləcə də gələcək karyeralarında onlara kömək edəcək səriştələri inkişaf etdirmək məqsədi daşıyırdı.

Ümumilikdə Azərbaycan və Avropadan olan 188 yüksək potensiallı universitet məzunu 2014-cü ilin iyul ayında bu proqrama cəlb olunub. Altı təlim modulu vasitəsilə 162 Azərbaycan və 26 beynəlxalq məzun bu il ilk Avropa Oyunlarının uğurla həyata keçirilməsinə yardım etmiş faydalı səriştə və biliklərə yiyələndilər.

# Hesabat prosesi, rəy və təkliflər

Davamlı inkişaf haqqında bu hesabat öncəki il Azərbaycanda gördüyümüz işlər və fəaliyyətlərimiz barədə tam və şəffaf hesabat vermək məqsədi daşıyır və əvvəlki hesabatlarla bağlı aldığımız rəy və təklifləri əks etdirir.





▲ Keçirdiyimiz rəy və təklif görüşlərinin birində vətəndaş cəmiyyəti nümayəndələri *"BP Azərbaycanda. Davamlı inkişaf haqqında hesabat 2013"* barədə fikirlərini bölüşürlər.

**Əhəmiyyətlilik dərəcəsini necə təyin edirik**




Daxili ekspertlərin rəyləri ▸ | ◂ Şirkətxarici hesabat təmayülləri
Risklərin qeydiyyat cədvəli ▸ | ◂ Auditoriyanın öyrənilməsi
Biznes prioritetləri ▸ | ◂ Sənaye üzrə müqayisə və həmkarların rəyləri
◂ Yerli və beynəlxalq medianın təhlili

Əhəmiyyətli məsələlər şirkətdaxili prioritetlərə uyğun gələn və şirkət xaricində ciddi maraq doğuran məsələlər kimi təyin edilir.

BP davamlı inkişaf barədə necə hesabat verir *bp.com/sustainability*

BP qrupunun maliyyə və əməliyyat göstəriciləri üzrə ümumi xülasə *bp.com/summaryreview*

Hesabatımızı hazırlayarkən biz elə məsələləri əhatə edirik ki, onların həm maraqlı tərəflər üçün ən çox əhəmiyyət kəsb etdiyinə, həm də BP-nin öz strategiyasını həyata keçirmək qabiliyyətinə potensial olaraq ən çox təsir göstərdiyinə inanırıq. BP qrupunun auditorları olan "Ernst & Young" şirkəti şirkətdənkənar zəmanəti təmin edib. Onlar bu hesabatın 2014-cü ildə Azərbaycandakı fəaliyyətlərimizlə bağlı əsas məsələlərin tarazlaşdırılmış və dəqiq təqdimatını, verilmiş rəqəm və açıqlamaların düzgünlüyünü və sənədlərə əsaslanmasını təmin ediblər.

## Rəylər

Bu, BP-nin Azərbaycanda davamlı inkişaf haqqında 12-ci hesabatıdır və əvvəlki ilin nəşrinə aid rəy və təklifləri əks etdirir. 2013-cü ilin hesabatı Azərbaycan və ingilis dillərində nəşr edildi və həm şirkət daxilində, həm də şirkətdən kənarda çap variantında və veb-saytımız vasitəsilə geniş yayıldı. Onu saytdan hər ay orta hesabla 150 dəfə yükləyiblər. Bütün maraqlı tərəflərə hesabatın nüsxələrini göndərdik, onlardan rəy və təkliflərini bildirməyi xahiş etdik. Həmçinin birbaşa rəy sorğusu üçün media nümayəndələri, vətəndaş cəmiyyəti təmsilçiləri və tələbələrin iştirakı ilə üç görüş təşkil etdik. Ümumilikdə, onların rəyi müsbət oldu.

**Media** mənsublarının rəyləri, əsasən, müsbət oldu və 2013-cü ilin hesabatı əvvəlki ildə olduğu kimi əhatəli və informativ hesab edildi. Təkliflər, əsasən, hesabatın "Əməliyyatlarımız" bölməsində daha geniş texniki təfərrüatların verilməsi ilə bağlı oldu.

**Vətəndaş cəmiyyəti** nümayəndələri rəy sorğusu görüşündə iştirak etdilər. BP qrupunun hesabatlar üzrə rəhbəri BP-nin həm qrup, həm də ölkə səviyyəsində davamlı inkişaf haqqında hesabatına dair rəy və təklifləri dinləmək üçün görüşdə iştirak etdi. Görüşdən əvvəl bütün iştirakçılardan müsahibə alaraq davamlı inkişaf haqqında hesabatımıza münasibətlərini öyrənmişdik. Bu, sonrakı müzakirənin kontekstini müəyyənləşdirməyə kömək etdi.

Əsas təkliflərdən biri hesabata daha çox müqayisəli rəqəmlər və vizuallaşdırılmış faktlar daxil etmək idi. Onları həmçinin işgüzar fəaliyyət və insan haqları üzrə strategiyamız, eləcə də şəffaflıq səylərimiz və işçi heyətinin milliləşdirilməsi barədə daha ətraflı məlumat maraqlandırırdı. Biz ictimaiyyətin əlavə materiallar əldə edə bilməsi üçün veb keçidlərdən daha çox istifadə etmək barədə təklif də aldıq.

**Tələbələr.** Bakı Dövlət Universiteti, Qafqaz Universiteti, Dövlət Neft Akademiyası, Texniki Universitet, Memarlıq və İnşaat Universitetinin tələbələri birgə rəy sorğusu görüşündə iştirak etmək üçün onlayn viktorina vasitəsilə seçildilər. Bu qrupu ən çox işəgötürmə ilə bağlı məsələlər və yerli tələbələr üçün karyera imkanları maraqlandırırdı. Qrup həmçinin hesabatın dizaynındakı təkmilləşmələr, xüsusilə də infoqrafikadan istifadə olunmasını bəyəndi. Bundan əlavə, onlar hesabatın veb və sosial media ilə daha da inteqrasiya olunmasını təklif etdilər.

## Bizim cavabımız

İşgüzar fəaliyyət və insan haqları üzrə strateji yanaşmamızı ayrıca bir bölmədə işıqlandırmağa, eləcə də bəzi yerli menecerlərin karyera yolu barədə uğur hekayələri verməyə davam etdik. Bununla yanaşı, Azərbaycanda çəkdiyimiz xərclər, işəgötürmə və yay təcrübəsi praktikamız, əməyin təhlükəsizliyi və ətraf mühitin qorunması ilə bağlı icra göstəricilərimiz barədə məlumatları açıqlamaqda davam etdik. Təklifə cavab olaraq statistik göstəricilərə infoqrafika ilə illüstrasiya verməyə davam etdik. Bir çox diaqramlar artıq beşillik dövrü müqayisəli şəkildə əks etdirir. Bundan əlavə, maraqlı tərəflərin təklif etdiyi kimi, əlavə informasiya üçün hesabata daha çox veb-keçidlər daxil etdik.

Etik və məxfiliklə bağlı səbəblərə görə, həmçinin BP qrupunun siyasətinə uyğun olaraq, ayrı-ayrı işçilərimizə və ya podratçılarımıza ödənilən əmək haqlarının məbləği və kommersiya baxımından həssas məlumatları açıqlamırıq. BP qrupunun bütün dünyada gəlirləri və xərcləri üzrə ümumi məlumatı şirkətin 2014-cü il üçün illik hesabatında oxumaq olar.

Əgər bu hesabatla bağlı rəy və təklifləriniz olarsa, axırıncı səhifədə verilmiş ünvan və telefonlar vasitəsilə bizimlə əlaqə saxlamağınızı xahiş edirik.

# Beşillik icra göstəriciləri[a]

31 dekabr tarixində qurtaran il üçün

| İstismar | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|
| Hasil edilmiş karbohidrogenlərin ümumi həcmi (gündə min barel neft ekvivalenti)[b] | 1 036 | 922 | 893 | 909 | **900** |

| Maliyyə[c] | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|
| Əməliyyat məsrəfləri – sərf olunmuş ümumi məbləğ (milyon dollar) | 831 | 1 206 | 1 360 | 1 542 | **1 766** |
| Əsaslı məsrəflər – sərf olunmuş ümumi məbləğ (milyon dollar) | 2 096 | 2 636 | 3 669 | 4 862 | **7 170** |

| Əməyin təhlükəsizliyi | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|
| Ölüm halları – əməkdaşlar | 0 | 0 | 0 | 0 | **0** |
| Ölüm halları – podratçılar | 0 | 0 | 0 | 0 | **0** |
| İş gününün itirilməsi hadisələri – işçi qüvvəsi | 1 | 3 | 3 | 5 | **0** |
| İş gününün itirilməsi hadisələrinin tezliyi – işçi qüvvəsi[d] | 0,01 | 0,03 | 0,03 | 0,03 | **0,00** |
| Qeydiyyata alınan xəsarətlər – işçi qüvvəsi | 15 | 21 | 20 | 40 | **14** |
| Qeydiyyata alınan xəsarətlərin tezliyi – işçi qüvvəsi | 0,17 | 0,24 | 0,21 | 0,27 | **0,09** |
| İşlənmiş saatlar – əməkdaşlar (milyon saat)[e] | 5,37 | 5,80 | 5,55 | 13,47 | **13,41** |
| İşlənmiş saatlar – podratçılar (milyon saat)[f] | 12,60 | 11,74 | 13,49 | 16,49 | **18,78** |

| Ətraf mühit | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|
| Birbaşa karbon dioksid (CO2), ümumi[g] (min ton) | 3 656,8 | 3 892,5 | 3 543,7 | 3 021,8 | **3 846,5** |
| Dolayısı ilə karbon dioksid (CO2)[h], ümumi (min ton) | 0,5 | 0,6 | 0,6 | 0,6 | **0,7** |
| Birbaşa metan (CH4), ümumi (min ton) | 10,5 | 13,5 | 11,2 | 6,8 | **11,6** |
| Birbaşa istixana qazı emissiyaları[i], ümumi (min ton CO2 ekvivalenti) | 3 876,4 | 4 177,0 | 3 776,2 | 3 163,7 | **4 066,8** |
| Məşəldə yandırılma (kəşfiyyat və hasilat), ümumi (ton) | 423 265 | 589 717 | 475 910 | 256 423 | **413 120** |
| Kükürd dioksid (SOx), ümumi (ton) | 114 | 112 | 114 | 122 | **155** |
| Azot oksidləri (NOx), ümumi (ton) | 8 908 | 8 544 | 8 695 | 8 887 | **11 179** |
| Qeyri-metan karbohidrogenlər, ümumi (ton) | 2 398 | 2 787 | 2 540 | 1 505 | **3 406** |
| Neft dağılmalarının sayı[j] | 11 | 5 | 12 | 11 | **6** |
| Dağılmış neftin həcmi (litr) | 32 181 | 2 677 | 175 716 | 15 232 | **14 311** |
| Yığılmamış neftin həcmi (litr) | 392 | 0 | 156 794 | 643 | **40** |
| Suya atılmalar – tərkibində sintetik əsaslı qazma məhlulu olan qazma şlamları (ton) | 3 308 | 0 | 0 | 182 | **881** |

| Əməkdaşlar | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|
| Daimi əməkdaşların sayı | 2 470 | 2 701 | 3 072 | 3 255 | **3 393** |
| İxtisaslı işçilərin sayı | 2 378 | 2 652 | 2 982 | 3 216 | **3 381** |
| Yerli əməkdaşlar | 2 067 | 2 272 | 2 530 | 2 722 | **2 907** |
| Yerli əməkdaşlar (%) | 87% | 86% | 85% | 85% | **86%** |
| Əcnəbi əməkdaşlar | 311 | 380 | 452 | 494 | **474** |
| Azərbaycan vətəndaşları olan yüksək vəzifəli menecerlər | 131 | 149 | 168 | 197 | **230** |

| Sosial xərclər | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|
| BP və tərəfdaşları üçün cəmi, ümumi (milyon dollar)[k] | 4,8 | 3,1 | 4,5 | 2,7 | **5,9** |

[a] Əgər başqa cür göstərilməyibsə, icra göstəriciləri yalnız Azərbaycanda BP-yə aiddir.
[b] Buraya Azəri-Çıraq-Dərinsulu Günəşli nefti, Şahdəniz qaz və kondensatı, həmçinin Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə çatdırılan səmt qazı daxildir.
[c] BP AGT və onun tərəfdaşları.
[d] Hər 200 000 iş saatına düşən sayla ifadə olunur.
[e] Əməkdaşlar tərəfindən işlənmiş saatlar BP ilə iş müqaviləsi olan şəxslərin işlədiyi saatlar kimi təyin olunur. Bu tərif BP qrupunun tərifinə uyğundur.
[f] Podratçılar tərəfindən işlənmiş saatlar bizim nəzarət sferamızda podratçıların işlədiyi saatlar kimi təyin olunur. Bu tərif BP qrupunun tərifinə uyğundur.
[g] Ümumi rəqəmlər hasilatın pay bölgüsü sazişlərində (HPBS) iştirak edən bütün tərəfdaşların paylarının məcmusunu əks etdirir. Xalis rəqəmlər HPBS-də BP-nin iştirak payını göstərir.
[h] Dolayısı ilə emissiyalar kənar mənbələrdən buxar, elektrik və istiliyin əməliyyatlar tərəfindən idxalı nəticəsində meydana gəlir.
[i] Birbaşa emissiyalar əməliyyatlardan hasil olan fiziki emissiyalarıdır.
[j] Neft dağılmaları bir barelə (42 ABŞ qallonuna bərabər 159 litr) bərabər və ya daha böyük həcmdə hər hansı maye karbohidrogenin ikinci dərəcəli mühafizə qatına yaxud açıq ətraf mühitə sızması kimi təyin edilir.
[k] Bu, BP-nin əməliyyatçısı olduğu layihələr çərçivəsində faktiki olaraq ödənilmiş rəqəmdir.

# Müstəqil əminlik bəyanatı

BP-nin Azərbaycanda həyata keçirdiyi davamlı inkişaf fəaliyyətlərinə dair məlumat, açıqlama və bəyanatların faktlara və izahlara əsaslandığı barədə BP rəhbərliyində əminlik yaratmaq məqsədi ilə biz BP-nin Azərbaycanda 2014-cü il üçün hazırladığı davamlı inkişaf haqqında hesabatı yoxlamışıq. Gördüyümüz işlərin əhatə dairəsi və gəldiyimiz nəticələrlə bu səhifədə tanış olmaq olar.

## Müstəqil şirkətin BP rəhbərliyinə əminlik barədə təminat bəyanatı

"BP Azərbaycanda. Davamlı inkişaf haqqında hesabat 2014" ("Hesabat") onun daxilindəki məlumatların toplanması və təqdim edilməsinə görə məsuliyyət daşıyan Azərbaycanda BP-nin rəhbərliyi tərəfindən hazırlanmışdır. Bizim məsuliyyətimiz BP rəhbərliyinin təlimatlarına uyğun olaraq Hesabat barədə məhdud əminlik öhdəliyini yerinə yetirməkdən ibarətdir.

Hər hansı digər bir məqsədə görə və ya hər hansı digər şəxs və ya təşkilat qarşısında heç bir məsuliyyət daşımırıq və qəbul etmirik. Hər hansı üçüncü tərəfin Hesabata nə dərəcədə etibar etməsinin məsuliyyəti tamamilə onun öz üzərinə düşür.

## Gəldiyimiz nəticələr gördüyümüz hansı işlərə əsaslanır

Əminlik üzrə götürdüyümüz öhdəlik Beynəlxalq Mühasiblər Federasiyasının beynəlxalq ISAE3000[12] standartına uyğun olaraq planlaşdırılmış və həyata keçirilmişdir.

Hesabat aşağıdakı meyarlara görə qiymətləndirilmişdir:

- Hesabatın 2014-cü ildə media nümayəndələri tərəfindən BP-nin Azərbaycandakı fəaliyyətləri ilə əlaqədar qaldırdığı davamlı inkişafa dair əsas məsələləri, Azərbaycanda BP-nin mühüm davamlı inkişaf problemləri ilə bağlı özünün keçirdiyi yoxlama və seçilmiş daxili sənədləri əhatə edib-etməməsi.
- Hesabatda verilmiş davamlı inkişaf haqqında məlumatların BP-nin müvafiq rəhbərləri tərəfindən verilən izah və dəlillərə uyğun gəlib-gəlməməsi.
- Hesabatda verilmiş davamlı inkişaf haqqında məlumatların müvafiq biznes bölümü səviyyəsində qeydə alınmış məlumatlara uyğun gəlib-gəlməmsi.

## Nəticələrə gəlmək üçün biz xülasəsi aşağıda sadalanan işləri həyata keçirmişik

1. Azərbaycanda BP-nin 2014-cü ildə davamlı inkişafla bağlı fəaliyyətinə dair şirkətdənkənar kütləvi informasiya vasitələrinin hesabatlarını və şirkətdaxili sənədləri, o cümlədən maraqlı tərəflərlə görüşlərin nəticələri nəzərdən keçirmişik.
2. Hesabatda əksini tapmalı əsas məsələlərin müəyyənləşdirilməsi üçün Azərbaycanda BP-nin nəzərdə tutduğu proseslərin nəticələrini nəzərdən keçirmişik.
3. Hesabatda davamlı inkişaf üzrə verilmiş icra göstəriciləri və bəyanatlar haqqında məlumat və ya izahatları nəzərdən keçirmişik. Hesabatda əksini tapmış davamlı inkişaf üzrə göstəriciləri dəstəkləyən sənədləri yoxlayarkən ölkə və ya sahə səviyyəsində məlumatların toplanması, müqayisə edilməsi və onların necə əldə edilməsi proseslərini yoxlamamışıq.

## Əminlik səviyyəsi

Dəlil toplama prosedurаlarımız məhdud əminlik səviyyəsi (ISAE3000-də təsbit edildiyi kimi) əldə etmək və nəticələri əsaslandırmaq üçün nəzərdə tutulmuşdur. Həyata keçirilmiş dəlil toplama prosedurаlarının səviyyəsi məqbul əminlik öhdəliyinin yerinə yetirilməsinə (məsələn, maliyyə auditi) verilən tələblərlə müqayisədə aşağıdır və buna görə də, nisbətən aşağı səviyyəli əminlik təmin edilmişdir.

## Gəldiyimiz nəticələr

Apardığımız yoxlamanın əhatə dairəsinə əsasən gəldiyimiz nəticələrin xülasəsi aşağıda verilmişdir

1. Hesabat əsas məsələləri əhatə edirmi? Mətbuatda və ya Azərbaycanda BP-nin özünün əhəmiyyət dərəcəsinin qiymətləndirilməsi prosesinin nəticəsi kimi qaldırılmış və bu Hesabata daxil edilməmiş davamlı inkişafla əlaqədar Azərbaycanda BP-yə aid hər hansı bir əsas məsələ bizə məlum deyil.
2. Hesabatda Azərbaycanda BP-nin davamlı inkişaf üzrə icra göstəriciləri dəlil-sübut və ya izahatlarla təsdiqlənirmi?

Hesabatda BP rəhbərliyi tərəfindən Azərbaycanda BP-nin davamlı inkişaf üzrə həyata keçirdiyi fəaliyyətlərlə bağlı təqdim edilmiş təsdiq və məlumatlarda hər hansı bir qeyri-düzgün bəyanatın olması bizə məlum deyil.

## Müstəqilliyimiz

"BP p.l.c."nin auditorları kimi "Ernst & Young"dan Audit Təcrübələri Şurasının ("Auditing Practices Board") Auditorlar üçün etik standartlarında müəyyənləşdirilmiş tələblərə riayət etmək tələb olunur. "Ernst & Young" şirkətinin müstəqillik strategiyaları firmalar, tərəfdaşlar və peşəkar işçilərə tətbiq olunur. Bu strategiyalar sifarişçilərimizə münasibətdə müstəqilliyə xələl gətirən və ya gətirə biləcəyi ehtimal olunan hər hansı maliyyə maraqlarını qadağan edir. Hər il işçi və tərəfdaşlardan şirkətin siyasətlərinə riayət etdiklərini təsdiq etmək tələb olunur.

Biz hər il, qadağan edilmiş xidmətlər də daxil olmaqla, müstəqilliyimizə və obyektivliyimizə xələl gətirə biləcək hər hansı hadisənin baş verib-vermədiyini BP-yə bildiririk. 2014-cü ildə heç bir belə hadisə və ya xidmət olmamışdır.

EY

Building a better working world

Ernst & Young LLP

London

9 iyul 2015

[12] Auditlər və ya Tarixi Maliyyə Məlumatları üzrə Yoxlamalar İstisna olmaqla Əminlik Öhdəlikləri üçün Beynəlxalq Mühasiblər Federasiyasının Beynəlxalq Standartı (İSAE3000).

# Əlavə məlumatlar



**Daha çox məlumatı onlayn əldə edin**
Bizim ikidilli *bp.com/xezer* veb-saytımız Xəzər regionunda müxtəlif enerji layihələrimiz barədə əsas məlumat mənbəyidir.

Ən son xəbərlər, layihələrin təfərrüatları, ətraf mühit və sosial sahəyə təsirin qiymətləndirilməsi, layihələri tənzimləyən hüquqi sazişlər, Azərbaycanda BP-nin davamlı inkişaf haqqında əvvəlki hesabatları və digər sənədləri nəzərdən keçirin.

**Sizin rəyiniz bizim üçün əhəmiyyətlidir**
Qeyd və təkliflərinizi onlayn göndərə bilərsiniz: *bp.com/caspian/contactus*

Həmçinin +994 (0)12 599 3000 nömrəli telefonla zəng vura

və ya bizə yaza bilərsiniz:
Şəffaflıq və ictimaiyyətə hesabatların verilməsi
BP AGT regionu,
BP Xəzər Mərkəzi, 14-cü mərtəbə,
Neftçilər prospekti, 153,
Bakı, AZ1010, Azərbaycan.

**İş üçün müraciət edin**
Veb-saytımızın Karyera bölməsinə baş çəkin: *bp.com/xezer/karyera*

Orada texniklərin işə götürülməsi proqramı, məzun və təcrübəçilərin işə götürülməsi proqramı və Azərbaycanda BP-nin təcrübəli peşəkarlar üçün iş elanları haqqında məlumat ala bilərsiniz.

Qeyd: Məzun və təcrübəçilərin işə götürülməsi kampaniyası adətən oktyabr ayında başlanır və bu barədə yerli mediada elan verilir.

**Problemli məsələləri qaldırın və məsləhət istəyin**
Məxfi "OpenTalk" xidməti günün 24 saatı, həftənin yeddi günü işləyir. Sizi narahat edən məsələ barədə istədiyiniz dildə, telefon, faks, məktub vasitəsilə məlumat verə və ya şikayətinizi onlayn göndərə bilərsiniz.

Onlayn forma: *opentalkweb.com*

Azərbaycan: +994 (0)12 599 3888
Beynəlxalq xətt: +1 704 540 2242
Faks: +1 704 556 0732

Məktub: BP OpenTalk, 13950 Ballantyne Corporate Place, PMB 3767, Charlotte, NC 28277, USA.

**Şikayət, sizi narahat edən məsələ və sorğularınızı göndərin**
Öz şikayətlərinizi, sizi narahat edən məsələləri və ya digər məlumatlarla bağlı sorğularınızı, zəhmət olmazsa, icmalarla əlaqə üzrə məsul şəxslərə çatdırın:

Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar
+994 (0)55 225 0251/225 0245
Ağdaş, Yevlax, Goranboy, Samux
+994 (0)55 225 0257/225 0254
Şəmkir, Tovuz, Ağstafa
+994 (0)55 250 5831/225 0260

İctimai informasiya mərkəzlərinin nömrələri:
Kürdəmir +994 (0)145 505 45
Yevlax +994 (0)166 658 84
Şəmkir +994 (0)22 305 4658

Təhlükəsizliklə əlaqədar bütün şikayət və narahatlıqlarla bağlı lütfən 114 nömrəsinə zəng edin.

**İcma proqramı qrantı üçün müraciət edin**
İcma proqramı qrantları ilə bağlı veb-saytımızda daha geniş məlumat alın: *bp.com/xezer*

Bizimlə növbəti ünvanla da əlaqə saxlaya bilərsiniz: *cdi@bp.com*

**Minnətdarlıqlar**
Dizayn "Folga Plus MMC"
Çap "Max Offset" nəşriyyat evi

Foto-şəkillər Şahin Abasəliyev,
Emin Əlizadə,
Ramin Əzizli,
Çingiz Səmədzadə

**Kağız**
Bu hesabat yenidən emal olunmuş kağız üzərində çap olunub.
Bu kağıza müstəqil yoxlama tərəfindən Meşə işləri üzrə İdarəçilər Şurasının (FSC) qaydalarına uyğun şəhadətnamə verilib.Stewardship Council (FSC).

© BP p.l.c. 2015




Fəridə Əzizova, Taekvondo • Oleq Panyutin, Paralimpiya uzununa tullanması / üçqat tullanma • Hacı Əliyev, Sərbəst güləş
Oloxan Musayev, Paralimpiya kürə atması / disk atma • İlham Zəkiyev, Paralimpiya cüdosu • Elxan Məmmədov, Cüdo

## Birlikdə.
## İdmançılarımızı doğma torpaqda alqışlayırıq.

Azərbaycanın 20 ildən artıq sadiq tərəfdaşı kimi Bakı Oyunlarına qatılmağımızın həyəcanını yaşayırıq. Biz məşhur Azərbaycan olimpiyaçıları və paralimpiyaçılarına sponsorluq edir, həm də onlar üçün elit idman təlimlərini təmin edirik. Ölkənin dünya səviyyəli tədbirlər keçirmək potensialını yüksəldəcək Oyunlar Akademiyasına da dəstək veririk.
BP və Azərbaycan – birlikdə Oyunlar və gələcək naminə.

**Daha ətraflı məlumat üçün: bp.com/baku2015**

Baku 2015
1st EUROPEAN GAMES

bp

Official Partner